بسم الله الرحمن الرحیم

# Ruhullahın həyat tərzi

İmam Ruhullahın (r.h)
ailə həyatından alınan fraqmentlər

هذا بیان للناس
انتشارات بیان اندیشه

**Kitabın adı:** Ruhullahın həyat tərzi (İmam Ruhullahın (r.h) ailə həyatından alınan fraqmentlər).
**Müəllifi:** Əliəkbər Səbziyan
**Tərcüməçi:** Emin Haciyev
**Tərtibat və dizayn:** Əmin Kövsəri
**Sifarişçi:** Xarici Zəvvarlar idarəsi
**Ümumi əlaqələr şöbəsinin müdiri:** Cavad Səbziyan
**Naşir:** Düşüncənin bəyanı
**Birinci çap**
**Tiraj**: 10000
**Çap tarixi:** 2017-ci il, qış fəslində
**Kitab:** 120 səhifə, illüstrasiyalıdır.
Kitabın bütün hüququ müəllifindir

**İcazə nömrəsi: 2075**
**Tənzim nəşr müəssisindən: 2011\02\9**
**İmam Xomeyninin (r.h) əsərlərindən**

Bizimlə əlaqədə olun:
Telefon: +98 09399910107
Teleqram sosial şəbəkəsi: @Ertebat_salam
Email: 7sabzian7@gmail.com

# Mündəricat

6 / Müqəddimə
10 / BİSMİLLAH
11 / Həyat yoldaşı mənim həmtayım olmalıdır
12 / Mübarək Ramazan ayında nikah
13 / Kiçik və köhnə ev
14 / Təkcə günah etmə!
15 / Gecə namazı və gecə mütaliəsi
16 / Xoş mənim halıma ki, belə bir həyat yoldaşım var
17 / Təbəssümlə qarşılama
17 / Xanımı yola salma
18 / Bənzərsiz bir xanımdır
19 / Nəcəfə zəng edin ki, xanımla danışım
20 / Xanımın durumunu anbaan mənə bildir
21 / Xanım gəlmədimi?
22 / Xanım, icazə varmı?
23 / Get-gəl etməzdən qabaq məşvərət
24 / Dua elə ki, yeri yaxşı olsun
25 / Biz Allahınıq və Ona doğru qayıdacağıq!
26 / Ailə daxilində dözümlülük və yumşaqlıq
27 / Sonuncu vəsiyyət
28 / Öz ailəsinə qarşı münasibətdə peyğəmbər kimi davranırdı
29 / Gəlib tikəcək kimsə yoxdurmu?
30 / Uşaqları saxlamaq üçün gecələrin bölüşdürülməsi
31 / Nə üçün səni üzəcək nəyisə deyim!
32 / Məni nigaran qoydun!
33 / Fəridə, xanım podnos gətirir
34 / Qurban olaram sənə!
36 / Sən yumalı deyilsən!
37 / Siz oturmusuz xanım isə işləyir?
38 / Xanımı görmüsüz, ya yox?
39 / Əgər ağa narazı olarsa, onda necə olacaq?
40 / Əmr verməyə haqqım yoxdur
41 / Xanım necədir?
42 / Siz qonaqların yanına gedin
43 / Orada daha bacarmaram

44 / Oğlum, sevgilə davran!
45 / Başqalarına mane olmadan gecə namazının qılınması
46 / Səbir edərəm!
47 / Dadlı olsa yeyərəm
48 / Əsas prinsiplərdə ciddiyyət
49 / Övladlarınızın tərbiyəsinə diqqət edin
50 / Namazlarına siz baxın
51 / Övladların tərbiyə edilməsi kiçik iş deyil
52 / Uşaqlarla əylənmək vaxtı
53 / İyirmi dəqiqə bir yerdə oynuyurduq
54 / Al, sən uddun
55 / Uşaqlarla düzgün şəkildə davranın
56 / Fatiməsiz gəldin?!
57 / Uşaqlar öz uşaqlığını etməlidir
58 / Atacan, gəl burda əyləş!
59 / Fədakarlığın əməli təlimi
60 / Ağa da mənimlə gəlmişdi
61 / Qatıq üçün qaşıq var
62 / Əməli tərbiyə
63 / Yetkinlik çağından sonrakı rəftar
64 / Uşağın yuxusuna haram qatma!
65 / Cibxərcliyi
66 / Günah olmaz!
67 / Bacınla sənin heç bir fərqin yoxdur!
68 / Naməhrəmə salam vermək vacib deyil
69 / İzdivac etmədiyinə görə ətrə ehtiyacın yoxdur
70 / Bu paltar sizə layiq deyil
71 / Naməhrəm az get-gəl etsin!
72 / İçəridə adam var!
73 / Bilirsiniz qeybət nə qədər haramdı ?
74 / 62 il ərzində qeybət eşitməmişəm
75 / Övladlara namazın ilk vaxtını tövsiyə
76 / Dərslərini yaxşı oxuyursan?
77 / Qonaqlıq və şənlik vaxtı deyil
78 / Namazı yüngül saymayın
79 / Təkəbbürlük etməyin
80 / Hamı ilə sədaqətli
81 / Bəzən bizə çay tökərdi
82 / Hamıya bərabər sevgi
83 / İki dost kimi olurduq

84 / Sənin günahın nəzm-intizamsızlıqdır
85 / Salamda qabaqlamaq
85 / Hidayət, nəsihət, amma müdaxilə yox!
86 / Nəvələr İmama aşiq idilər
87 / Səbir və güzəştə dəvət
87 / Gözləntim təkcə günahlardan çəkinməyinizdir
88 / Seçim sizin əlinizdədir
89 / Son söz qızındır
90 / İzdivac üçün iki önəmli göstəriş
91 / Biri-birinizlə dost olun
92 / Gedin biri-birinizə uyğunlaşın
93 / Mənzil hazırla!
93 / Qadının işləməsinin eybi yoxdur, amma bir şərtlə ki,...
94 / Əsəbləşsə, dillənmə!
95 / Bir dəqiqə olsa da, hədər verməzdi
96 / İmamın şirin təbəssümü
97 / Çox emosional idi
98 / Qum şəhərinə çatanda zəng edərsən
99 / Əhəmiyyətlisi qızdır
100 / İşlərin tənzimlənməsi
101 / Təmizlikdə nümunə idi
102 / Gərək təmiz və səliqəli olasınız
103 / Siz də həmin işi görün
104 / Süfrədə yemək üçün dəsmal
105 / Paltarın rəngində qadağam yoxdur
106 / Artıq çıraq sönməlidir
107 / Bu salfetkanı hələ istifadə etmək olar
108 / İndi ki, hamıda var, siz də alıb gətirin
109 / Çox qəşəng köynəkdir!
110 / İstirahət zamanı istirahət et
111 / Orta bir tələbənin yaşayışı
112 / Mənzilimdə israf !?
113 / Yeməmək naşükürlük deyil
113 / Xudahafiz, xanım!
114 / Əhd duasının insan taleyinə təsiri
115 / Bunların heç birisi bir şey deyil
116 / İnsan özü özünü təmin etməlidir
117 / Ananın razılığını ələ gətirin
118 / İstəsəniz, özünüz durun
118 / Bu da sənə xatir!

بسم الله الرحمن الرحيم

عَنْ عَبْدِ السَّلَامِ الْهَرَوِيِّ عَنِ الرِّضَا عليه السلام قَالَ: رَحِمَ اللهُ عَبْداً أَحْيَا أَمْرَنَا قُلْتُ كَيْفَ يُحْيِي أَمْرَكُمْ قَالَ يَتَعَلَّمُ عُلُومَنَا وَيُعَلِّمُهَا النَّاسَ فَإِنَّ النَّاسَ لَوْ عَلِمُوا مَحَاسِنَ كَلَامِنَا لَاتَّبَعُونَا.

(عيون اخبار الرضا عليه السلام ، ج ١، ص ٣٠٧)

Əbdussalam ibn Saleh Hərəvi belə deyir:

İmam Rzanın (ə) qulluğunda idim, onun belə buyurduğunu eşitdim: Allah Bizim əmrimizi (imaməti) dirçəldənə öz rəhmətini yağdırsın. Soruşdum ki, sizin əmriniz necə dirçəlir? İmam isə buyurdu: Bizim elmlərimizi öyrənib başqalarına öyrətməklə, çünki əgər insanlar kəlamlarımızın nə kimi gözəllikləri olduğunu bilsələr, bizə tabe olarlar.

(Uyun əxbar ər-Riza (ə) c. 1, səh. 307)

Allah-taalanın böyük nemətlərindən biri də məsum Rəhbərləri (ə) bizim aramızda qərar verməsidir. Bizə nümunə olaraq onların həyat tərzi, Allaha qarşı ibadətləri və öyüd-nəsihətləri bizi əbədi səadətə qovuşdurur. Məşhəd torpağı peyğəmbər övladının dəfn olunduğu, habelə cənnətin bir parçasıdır. Bu torpaqda imamət səmasının səkkizinci ulduzunun məzarı yerləşir. Hər il İmama məftun olan milyonlarla İranlı və xarici ziyarətçilər bu məkana axışaraq susuz ruhlarını Əhli-Beytin zülal maarifi ilə sirab edirlər.

Müqəddəs Rəzəvi Astanasının xidmətçilərinin hər biri İmam Rza (ə) zəv-

varlarına ziyarətdən daha çox faydalana bilmələri məqsədilə onların rahatlıq və aramlığı üçün xidmət göstərməkdədirlər. "Müqəddəs Rəzəvi Astanasının Xarici Zəvvarlar İdarəsi"də öz növbəsində əlindən gələn bütün xidmətlərini İmam Rza (ə) ziyarətçilərinə göstərir, Əhli-Beytin (ə) xüsusən İmam Rzanın (ə) həyatındakı davranış və əxlaq mədəniyyətini bütün rzasevərlərə və şiələrə aşılayır. Müdiriyyətin göstərdiyi təşəbbüs xarici zəvvarların bəsirəti və mənəvi inkişafı artırmaq məqsədilə İran İslam Respublikasının Ali dini liderinin nəsihətləri, Astan Qüdsi Rəzəvinin rəhbərliyinin göstərişləri və habelə Astan Qüdsi Rəzəvinin 20 illik iş təcrübəsi İslam mədəniyyətinin yayılması üzərində qurulmuşdur.

İdarənin İmam Rza (ə) zəvvarlarına qarşı beynəlxalq sahədə göstərdiyi xidmət növləri aşağıdakılardan ibarətdir:

-Mədəni proqramların təşkil edilməsi;

-Maarifləndirici halqalar;

-Peşəkar görüşlərin baş tutması;

-Elmi konfrans və seminarların həyata keçirilməsi;

-Mədəni müsabiqələr;

-Şer gecələrinin təşkili;

-İslamı qəbul etmə mərasimi;

-Dini ekspertlərlə görüşlər;

-Göndərilən məktubların cavablandırılması;

-Kitab və bu kimi digər mədəni məhsulların xarici ölkələrə göndərilməsi;

-Dini məsələlərə dair sual-cavablar;

-İnternet şəbəkəsi olan "Rəzəvi talk"da di-

aloqların keçirilməsi;

-Müxtəlif dillərdə İslam maarifinə dair ədəbiyyatların yazılması və onların tərcümə edilməsi. Bu gün İslamın çağırışı dünyanın hər bir guşəsinə çatıb. Bu çağırış özlərindən uzaq düşmüş insanları həqiqətə doğru yenidən qaytara bilər. Hazırda haqpərəst insanların qəlbləri İslama, onun təqdim etdiyi dəyərlər və insan tərbiyəsi metoduna üz tutub artmaqdadır. Bu kitabın həqiqət axtarışına olan kimsələrə faydalı olmasını, zəvvarların və Əhli-Beyt (ə) aşiqlərinin mərifət çırağını aydınlatmasını və Allah-taalanın razılığına səbəb olmasını ümid edirik.

اَللَّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَالِ مُحَمَّدٍ، وَمَتِّعْنى بِهُدًى صالح لا اَسْتَبْدِلُ بِهِ، وَطَريقَةِ حَقٍّ لا اَزيغُ عَنْها، وَنِيَّةِ رُشْدٍ لااَشُكُّ فيها، وَعَمِّرْنى ما كانَ عُمْرى بِذْلَةً فى طاعَتِكَ.

Allahım, Məhəmməd və onun Ailəsinə öz rəhmətini yağdır! Məni elə düzgün bir hidayətlə bəhrələndir ki, onu heç nə ilə dəyişməyim, məni elə haqq bir yola yönəlt ki, ondan azmayım, mənə elə bir inkişaf niyyəti nəsib elə ki, onda şəkk etməyim. Allahım, nə qədər ki, ömrüm sənin itaətində sərf olur, məni yaşat.[1]

İslam əlaqələri və xarici zəvvarlar idarəsi

1. Səccadiyyə Səhifəsi, 1-ci dua

# İthaf olur:

İran İslam respublikasının liderinin vəfalı, fədakar həyat yoldaşına, böyük xanıma, İslam inqilabının anası xanım Qüds Səqəfiyə. İmam Xomeyni (r.h) həyat yoldaşına olan sevgisinin səbəbini belə aşıqlamışdı:

«Əgər siz də bu qədər fədakar olsanız, onda sizin həyat yoldaşınız da bir o qədər sizi sevər».



## BİSMİLLAH

Böyük ilahi şəxsiyyətlərin siyasi, ictimai davranışları, mübarizələri örnək, dərs və böyük bir təcrübə olsa da, onların şəxsi və ailə həyatları düzgün yaşamaq, qurtuluş və hidayət üçün də etalon hesab olunur.

Qarşınızdakı «Ruhullahın Həyat Tərzi» adlanan bu toplu İmam Xomeyninin (r.h) eşq və sevgi dolu ailə həyatından alınan hissə və çıxarışları əks etdirir ki, bu da onun səmavi çöhrəsinin könüllərimizə Haqqın xatirəsini qonaq edərək, öz həyat tərzi ilə ailə ocaqlarımızın ən gözəl istilik və xoşbəxtlik qaynağına çevrilir. Şübhəsiz, daha az diqqət mərkəzində olan, İmam Xomeyninin (r.h) həyatından alınan bu fraqmentlər yaxşılıqları təzahür etdirən İmamın digər bir çöhrəsini bizim üçün aydınladacaq və habelə ailələri həzrət Ruhullahın indiyədək gizli qalan həyatındakı Quran və dindən əldə etdiyi bacarıqlar, incəliklər, zərafətlərlə daha çox tanış edəcək.Həzrət Ruhullahın həyatdakı davranışlar Peyğəmbər (s) və Əhli-beytin (ə) həyat tərzindən alındığını nəzərə almaqla, bəzi xatirələri nəql edərkən həmin mövzu ilə uyğun olan hədis də qeyd olunmuşdur. Ümid edirik ki, dövrümüzün misilsiz şəxsiyyətinin həyat tərzindən örnək almaqla ailə ocaqlarımızı istilədə bilək. İmam Xomeyninin (r.h) əsərlərinin nəşr və tənzimi müəssisəsinə, xüsusilə, bu əsəri tədqiq edib nəşr icazəsini alan Dr. Həmin Ənsariyə öz dərin təşəkkürümüzü bildiririk.

رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا

(Furqan: 74)

Müqəddəs Məşhəd Elmi Hövzəsi: Əliəkbər Səbziyan

**Peyğəmbər (s):**
"Yaxşı və layiqli ailələrlə qohum olun, çünki damar və kökün təsiri var".
Məkarimul-Əxlaq, c. 1, səh. 432, hədis. 1474

## Həyat yoldaşı mənim həmtayım olmalıdır

İmamın izdivac üçün meyarı belə idi ki, dindar və tanınmış bir ailənin qızı ilə evlənsin. O, izdivac etmək istədikdə belə demişdi: "Mən Xomeyndən evlənmək istəmirəm, çünki evlənəcəyim qızın həmtayım olmasını istəyirəm. Əgər özüm dərs oxuyuramsa, onda mənimlə eyni düşüncədə olan həyat yoldaşım olmasını istəyirəm. Odur ki, Qumdan ruhani bir ailənin qızı və eyni zamanda həmtayım olanla evlənməliyəm".

Cənab Livasi İmama belə demişdi: "Cənab Səqəfi və onun ailəsinin bu kimi xüsusiyyətləri, özəllikləri var. Dindar olmalarından əlavə, düşüncə baxımından da ziyalıdırlar".

İmam sadə bir elçilik mərasimindən sonra Qumda bir mənzil kirayələdi və daha sonra xanımın cehizini gətirib toy elədi. [1]

1. Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Ramazan ayında izdivac etmək müstəhəbdir, çünki bu ayda bərəkət ümidi var".
Əl-Firdovs, c. 5, səh. 539



## Mübarək Ramazan ayında nikah

İnsanların Ramazan ayında evlənməsi adət-ənənəyə uyğun olmadığı halda, bizim evliliyimiz məhz bu ayda baş tutdu. İmam o qədər dərslərinə bağlı biri idi ki, hətta öz izdivacı üçün belə dərslərini tətil etməyə razı olmadı. O belə deyirdi: Ramazan ayında dini təhsil ocaqlarında dərslər tətil olduğundan evlilik üçün münasib bir vaxtdır.[1]

1. İmamın həyat yoldaşı

**İmam Əli (ə):**
"Ən ləzzətli həyat qənaətlə birgə olan həyatdır".
Ğürərul-Hikəm, 2918-ci hədis.

## Kiçik və köhnə ev

Nəcəfdə İmamın mənzili üçün alınan ev əşyaları bunlar idi: köhnə xalça, köhnə kilim, üç-dörd yataq, böyük bir samovar, bir kisə şəkər, bir qutu çay, qonaqları qarşılamaq üçün qırx ədəd xal-xal stəkan və nəlbəki, dörd ədəd podnos və dörd dəst yemək qabı.

Qonaqlara da xəbər verdilər ki, gəlib 5.6 kvadratlıq həmin həyətdə otursunlar.

İmam da Kərbəladan gəlib icarəyə alınan öz kiçik mənzilinə daxil oldu və orada düz 14 il yaşadı. Mənzil olduqca kiçik idi və bir döşəyin yerləşəcəyi qədər bir mətbəxi var idi. Yemək çəkən zaman qazanı həyətə qoymağa məcbur idik. Kiçik və köhnə bir ev idi. [1]

1- İmamın həyat yoldaşı

**İmam Baqir (ə):**
"Gizlində günah edən kəsə, Allah etinasız olar".
Mizanul-Hikmətin xülasəsi, c. 1, 398-ci hədis



## Təkcə günah etmə!

Evlilik həyatımızın ilk günlərində İmam mənə belə söylədi: Səninlə heç bir işim yoxdur. İstədiyin kimi paltar alıb geyin, ancaq səndən istədiyim odur ki, vacib əməlləri yerinə yetirib haram əməllərdən isə çəkinəsən, yəni günah etməyəsən.

İmam müstəhəbb əməllərə elə də baş qoşmurdu. İstədiyim kimi yaşayırdım. Rəfiqələrimlə get-gəl etməyimə və nə zaman gedib, nə zamansa qayıtmağıma qarışmırdı. O, öz dərs və təhsili ilə məşğul idi, mən də öz işlərimlə. [1]

1- İmamın həyat yoldaşı

**Peyğəmbər (s):**
"Cəbrail daim mənə əhya saxlamağı tövsiyə edərdi. Sonda elə düşündüm ki, ümmətimin ən yaxşıları daha gecələr heç bir zaman yatmayacaqlar".
Səduqun Amalisi, səh. 230, 9-cu hədis.

## Gecə namazı və gecə mütaliəsi

Mustafa Xomeyni belə deyirdi: İmam izdivac edəndə -bildiyimiz kimi, adətən, insan yeni ailə quranda, gündəlik məşğuliyyətlərini bir miqdar azaldıb kitab və mütaliədən uzaqlaşar- axşamçağı camaat namazından sonra gəlib şam yeməyini yeyər və daha sonra yatardı.

Digər tərəfdən, gecənin sonları yuxudan durub gecə ibadəti, gecə namazı və öz mütaliələri ilə məşğul olardı. Elə bir proqram qurmuşdu ki, həm ailəsi narahat olmurdu, həm də gecə ibadəti və mütaliəsini edirdi.[1]

1- Ayətullah şəhid Məhəllati

**Peyğəmbər (s):**
"Kişinin qadına xitabən "Səni sevirəm" sözü heç bir zaman onun qəlbindən çıxmaz».
Kafi, c. 5, səh. 432



## Xoş mənim halıma ki, belə bir həyat yoldaşım var

İmamın öz həyat yoldaşına qarşı çoxlu sevgi və əlaqəsi var idi, belə ki, xanımı bu münasibətin bir tərəfində idi, uşaqları isə digər bir tərəfində. Onun bu sevgisi xüsusi bir sayğı ilə müşayiət olunurdu. Bir dəfə xanımı səfərə getmişedi, İmamsa çox darıxırdı. İmam qaşqabağını tökəndə biz zarafatla deyirdik ki, xanım olanda ağa gülür, olmayanda isə ağa narahat olub qaşqabağını tökür.

Hər nə qədər İmama söz atsaq da, yenə qaşqabağı açılmadı. Sonda mən belə söylədim: "Xoş o xanımın halına ki, siz onu bu qədər sevirsiniz".

İmam isə belə dedi: "Xoş mənim halıma ki, belə bir həyat yoldaşım var. Onun həyatda göstərdiyi fədakarlığı kimsə göstərməmişdir". [1]

1- Zəhra Əşrəfi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Hər dəfə evinə daxil olanda ailənə salam ver, çünki bu zaman evinin xeyir və bərəkəti çoxalar".
Mizanul-Hikmətin xülasəsi, c. 1, hədis. 3107

## Təbəssümlə qarşılama

İmam izdivacının ilk günündə xanımı ilə sözləşmişdi ki, ildə bir dəfə xanım Tehrana gedib üç ay yayı orada keçirə bilər. İmamın özü də Xomeynə gedərdi. Bu proqram həmişə icra olunurdu və biz böyüyənədək də davam etdi. İmama çətin gəlirdi ki, xanımı qışda səfərə çıxsın. Xanımı səfərə çıxan gündən qayıdana qədər qaşqabağını tökərdi. Xanımı evə daxil olanda İmam gülərdi və bu, İmamın öz xanımına qarşı sevgi göstərməsinin təzahürlərindən biri idi. [1]

## Xanımı yola salma

Bəzən xanımı səfərə çıxmaq istədikdə, günün hər bir saatında olursa, olsun, hətta günortadan sonra saat ikidə İmamın istirahət zamanında belə, öz gündəlik proqramındakı dəqiq nəzm-intizama baxmayaraq, ona hörmət əlaməti olaraq mənzilin həyatinə çıxaraq onu yola salardı.[2]

1- Fəridə Mustəfəvi (İmamın qızı)
2- Mustafa Kəffaşzadə

**Peyğəmbər (s):**
"Allah həcc, cihad və ya təhsildə öz ərinə yardım edən hər bir qadına Əyyubun həyat yoldaşına verdiyi mükafatı verər".
Məkarimul-Əxlaq, c. 1, səh. 439



## Bənzərsiz bir xanımdır

İmamın öz həyat yoldaşına qarşı dərin əlaqəsi onun fədakarlığına görə idi. O həmişə belə söyləyərdi: "Xanımım bənzərsizdir".

İmamın xanımı 15 il Nəcəfin isti coğrafi şəraitində problemlərə qatlanmış və hər bir yerdə İmamla birgə olmuşdur. Halbuki öz ata evində rifah içində yaşayırdı. İmamın evinə gəlin gələndə onun təkcə 15 yaşı var idi. Sanki o zaman Qumda yaşamağı sevmirdi, amma buna baxmayaraq, heç bir zaman bunu İmama bildirməmişdi.

İmamdan "Nə edək ki, həyat yoldaşımız bizə bu qədər sadiq, bağlı qalsın?"- deyə soruşanda belə deyərdi: "Əgər siz də bu qədər fədakar olsanız, onda sizin həyat yoldaşınız da bir o qədər sizə sadiq, bağlı qalacaqdır".[1]

1- Zəhra Əşrəfi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Bizim dostlarımızdan olan hər bir kəs öz həyat yoldaşını daha çox sevər".
Ayine həmsərdari, Ayətullah Əmini, səh. 223



## Nəcəfə zəng edin ki, xanımla danışım

İmam Nəcəfdə olduğu 15 il müddətində kimsə ilə telefonda danışmırdı. Parisə gedəndə elə həmin ilk gün ya da ikinci gün dedi ki, Nəcəfə zəng edin, xanımla danışmaq istəyirəm.

Parisdə olduğu müddətdə bu hadisə bir neçə dəfə təkrarlandı, belə ki, İmam xanımı ilə telefonda danışdı.

Məhz belə bir yaxınlıq və sevgiyə görə İmam Parisdən bir neçə dəfə ismarış yolladı ki, mümkün qədər tez xanımın da Parisə gələ bilməsi üçün onun pasport və viza işlərini düzəltsinlər.

Bir-iki həftədən sonra xanım Parisə gəldi. İmam ailəsini görən kimi, onun aram olduğunu müşahidə etdik. [1]

1- Höccətülislam seyid Əliəkbər Möhtəşəmi

**Peyğəmbər (s):**
"Ey Əli! Ailəyə qulluq etmək böyük günahların bağışlanması olmaqla yanaşı ilahi qəzəbi söndürər, yaxşılıq və dərəcələri isə çoxaldar".
Camiul-Əxbar, səh. 276

## Xanımın durumunu anbaan mənə bildir

Xanımın mədəsində problem yaranmışdı. Xəstəxanaya köçürülməli və ondan analiz götürülməli idi.

İmam mənə belə dedi: Anbaan xanımın durumunu telefonla öyrən və mənə də bildir. Bir neçə dəqiqədən bir xəbər öyrənib İmama bildirirdim. Xanımı xəstəxanada əməliyyat üçün hazırlayan zaman İmam mənə 50 tümən pul verdi ki, onu şəhərin cənubunda yerləşən yoxsul insanların arasında paylayım. Sonra məlum oldu ki, bu pulu xanımın sağalması üçün sədəqə kimi vermişdi.

Əməliyyatın uğurlu keçdiyini eşidən kimi 20 tümən də çıxarıb mənə verdi. Mən isə ondan "Ağa, bunu da eyni yerə aparıb paylayım"-deyə söyləyəndə dedi ki, xeyr, bu, daha səninkidir. [1]

1- Hacı İsa Cəfəri (İmamın xadimi)

**Peyğəmbər (s):**
"Övladları sevmək cəhənnəm atəşi qarşısında bir sədd, onlarla birgə xörək yemək atəşdən xilas olmaq sənədi və onları əzizləməksə Sirat körpüsündən keçmək icazəsidir".
Tənbihul-Ğafilin, səh. 344

## Xanım gəlmədimi?

Anam süfrədə əyləşməsəydi, İmam yemək yeməzdi və hamı süfrə başına toplaşmayınca gözləyərdi.

Son vaxtlara qədər xanım süfrəyə gəlməyənə qədər əlini yeməyə vurmazdı. Bəzən biz tez yeməyə başlayardıq, ancaq İmam «Nə üçün səbr etmirsiniz?"-deyə etiraz etməz, əksinə, deyərdi ki, xanım gəlmədimi?

Bir neçə dəfə onu səsləyərdi. Bəzən xanım gəlib belə deyərdi: "Ağa, axı, mənim qonağım var, siz yeyin, mən yemək çəkməliyəm. Daha sonra gələrəm". İmamın bu davranışı hamını təsir altına alırdı.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)



## Xanım, icazə varmı?

İmam öz xanımını evdə elə azad buraxır və ona sayğı göstərirdi ki, onun xüsusu qonaqları olan günlərdə ondan icazə alıb soruşardı: "Bu gün bu tərəfə keçib yemək yeyə bilərəm?" və ya "Gəlib həyətdə qədəmləyə bilərəm?"

1- Mərziyyə Hədidəçi

**İmam Əli (ə):**
"Öz işlərin barədə Allahdan qorxan kimsələrlə məşvərət et ki ,doğru yolu tapa biləsən".
Ğürərul-Hikəm, s. 732

## Get-gəl etməzdən qabaq məşvərət

İmamın xanımı belə deyərdi :Yeni bir ailə ilə get-gəl etmək istədikdə İmamla məşvərət etməli idim,çünki o demişdi ki,mənim xəbərim olmadan kiminsə evinə getmə .Bu,düzgün olmaz.Habelə çölə çıxmaq istədiyimdə, ona hara getmək istədiyimi xəbər etməliydim.

Bu şərtləri evdən çölə çıxarkən qoymuşdu, amma evin daxilində mütləq şəkildə azad idim. [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Atanın övladı üçün duası əkin üçün faydalı su kimidir".
Əl-Firdovs, c. 2, səh. 213



## Dua elə ki, yeri yaxşı olsun

Bir gün İmamın otağına daxil oldum, gördüm ki, xanımı ilə televizora baxırlar. Dayım Mustafanın ildönümü gecəsi idi, ağa da onu anırdı. Xanım isə olduqca qəmgin idi.

İmam belə dedi: "Xanım, nə üçün qəmginsən?"

Xanım isə cavabında belə dedi: "Axı, bu il də televizor Mustafa barədə heç nə danışmadı".

İmam dedi: "Bunların söhbəti ilə nə işin var? Dua elə ki, yeri yaxşı olsun".[1]

1- Höccətülislam vəlmuslimin Məsih Burucerdi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
“Atanın öz övladı üçün duası peyğəmbərin öz ümmətinə olan duası kimidir”.
Əl-Firdovs, c. 2, səh. 212

## Biz Allahınıq və Ona doğru qayıdacağıq!

İmam Mustafanın şəhadəti hadisəsində o qədər aram bir davranış sərgilədi ki, hadisəni ona bildirəndə öz barmağını yavaşca tərpədərək üç dəfə belə dedi: «Biz Allahınıq və Ona doğru qayıdacağıq!» Bu ayəni dilinə gətirdikdən sonra son söylədiyi cümlə bu oldu:

“Onun cənazə mərasimi ilə bağlı müstəhəb əməlləri yerinə yetirməyə çalışın”.[1]

1- Hüccətülislam seyid Əhməd Xomeyni

**Peyğəmbər (s):**
"Allah bir ailəni sevdikdə, həmin ailəyə dözümlülük, səbr və mülayimlik bəxş edər".
Kənzül-Ummal, c. 3, səh. 52



## Ailə daxilində dözümlülük və yumşaqlıq

İmam hər bir şeydə ağır və ciddi idi, amma ailəsinə gəldikdə, yumşaq idi. Çox zaman olurdu ki, onun əsasını götürüb oynayırdım. Sonra anam mənə etiraz edərək deyirdi ki, baban yorğundur. İmam isə belə cavab verirdi: "Xeyr, qoy, oynasın. Uşaq əgər oynamasa, deməli, xəstədir. Uşaq dəcəllik etməlidir".[1]

1- İmamın nəvəsi

**Peyğəmbər (s):**
"Övladlarınıza hörmət göstərin və onları yaxşı tərbiyə edin ki, bu da sizin bağışlanmağınıza səbəb olar".
Məkarimul-Əxlaq, c. 1, səh. 478

## Sonuncu vəsiyyət

... Əhmədə sonuncu vəsiyyətim odur ki, öz övladlarını yaxşı tərbiyə edib onları uşaqlıqdan İslamla tanış eləsin, onların mehriban anasına qarşı diqqətli olsun və bütün qohumlarına xidmət göstərsin. [1]

1- Səhifeyi İmam, c. 16, səh. 226

**Peyğəmbər (s):**
“Sizin ən yaxşınız öz ailəsi üçün ən yaxşı olan birisidir. Mən isə öz ailəmə qarşı ən yaxşınızam”.
Ən-Nəvadir, səh. 204, 277-ci hədis.



## Öz ailəsinə qarşı münasibətdə peyğəmbər kimi davranırdı

İmam öz ailəsinə qarşı münasibətdə peyğəmbər kimi idi. Axşamçağı olanda ağanın ailəsi, nəvələri, qızları və gəlinləri gəlib onun ətrafında əyləşərdilər və onunla elə isti bir münasibət qurub zarafatlar edirdilər ki, bu qədər siyasi məşğələsi olan bir siyasi rəhbər üçün belə bir halın təsəvvür edilməsi mümkünsüz idi.

Bəzi günlər şahidi olurdum ki, İmam yaşlı olmasına və məşğələlərinə rəğmən balaca Əli ilə oynayırdı. Ağa otağın bir tərəfində, Əli isə digər tərəfində durub bir-birilə top oynayırdılar.[1]

1- Seyid Rəhim Miriyan (İmamın ofis üzvlərindən biri)

**İmam Əli (ə):**
"Qadın xidmətçi yox, güldür. Elə isə bütün hallarda onunla keçin və onunla yaxşı şəkildə davran ki, həyatın səfalı olsun".
Nəhcül-Bəlağə

## Gəlib tikəcək kimsə yoxdurmu?

İmam heç vaxt xanımına hər hansı bir işi görməyi əmr etməzdi. Xanımı belə deyərdi: İmamın köynəyinin bir düyməsi düşəndə deyərdi ki, olarmı, bunu verəsiz, tiksinlər. O əsla "Özün tik" deyə söyləməzdi, ya da bəzən əgər növbəti gün tikilməsəydi, "Nə üçün tikmədiniz?" deyə etiraz etməzdi. Əksinə, deyərdi ki, gəlib bunu tikəcək kimsə yoxdurmu? İmam ömrünün sonuna qədər heç bir zaman xanımına "Mənə bir stəkan su verin" deyə müraciət etmədi. Amma özü dəfələrlə bu işi görürdü. [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

İmam Baqir (ə):
"Əli (ə) və Fatimə (ə) öz işlərinin bölüşdürülməsi barədə qərar qəbul etmək üçün Peyğəmbərin (s) yanına getdilər. Peyğəmbər isə belə qərar qəbul elədi ki, ailədaxili işləri Fatimə görsün, ailəxarici işləri isə Əli".
Tuhəful-Uqul, s. 170, hədis. 228



## Uşaqları saxlamaq üçün gecələrin bölüşdürülməsi

İmamın xanımı deyirdi ki ,uşaqlar gecələri çox ağladığından və sübhədək oyaq qaldırlarından İmam gecə saatlarını bölmüşdü, yəni, məsələn, iki saat özü baxırdı uşaqlara və xanımı yatırdı. İki saat da özü yatırdı və xanımı uşaqlara baxırdı.

İmamın övladları da nəql edirlər ki, ağa onlarla oynayırdı, yəni dərsi bitdikdən sonra bir saatını uşaqlarla oyuna həsr edirdi ki, uşaqların tərbiyəsində xanımına yardımçı olsun. [1]

1-Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Kimsə öz ailəsini sevindirərsə, Allah o sevincdən qiyamətəcən günahlarının bağışlanmasını tələb edən bir varlıq yaradar".
Kənzül-Ümmal, c. 16, səh. 379

## Nə üçün səni üzəcək nəyisə deyim!

İnqilabdan sonrakı problemlər olduqca çox idi, xüsusən də müharibə başlayan gündən bəri İmam çoxsaylı qorxulu və təsiredici xəbərlər eşidirdi, amma heç vaxt onları bizimlə bölüşmürdü.

Bəzən onun otağına gedib görürdüm ki, kimsə məndən öncə İmama nəyisə xəbər verib və o da narahatdır. Mən "Nə olub?"-deyə soruşanda cavab verərdi ki, axı, nəyə görə sənin də narahat olacağın nə isə deməliyəm.

Amma digər tərəfdən, əgər xoş bir xəbər olsaydı, qapıdan içəri girən kimi bizə deyərdi ki, gəlin, sizə bir xəbərim var. Xoşluqları hamı ilə bölüşərdi, ancaq narahatlıqları təkcə özü üçün saxlayardı. [1]

1-Fatimə Təbatəbai (İmamın gəlini)



## Məni nigaran qoydun!

Fransada olanda bir gün İmamın xanımı qohumlarından birinin evinə qonaq gedir. Qayıdan zaman İmama söylədiyi vaxtdan iki saat gec qayıtmışdı. İmam bütün işlərini saatla, dəqiqə ilə tənzimlədiyindən üç dəfə otaqdan mətbəxə gələrək soruşdu: "Xanım gəlmədi?" Üçüncü dəfə isə belə dedi: «Nigaran qaldım, siz əlaqə yaratmaq üçün nəyisə bir vasitə tapa bilərsiz?"

Nəhayət, xanım gəldi. Bu zaman İmam xüsusi bir sevgilə onun qarşısında əyləşərək təkcə bu sözü söylədi: "Məni nigaran qoydun!"[1]

1- Mərziyyə Hədidçi (Dəbbağ)

**Peyğəmbər (s):**
"Qızlar ürəkyanan, köməkçi və bərəkətli olurlar. Hər kimin bir qız övladı olarsa, Allah ona xatir cəhənnəm odu qarşısında bir sədd yaradar, kimin iki qızı olarsa, onlara xatir cənnətə daxil olar və kimin üç qızı, ya da onlar kimi bacısı olarsa, bu zaman cihad və müstəhəbb sədəqə onun boynundan düşər".
Kənzül-Ummal, c. 16, səh. 454

## Fəridə, xanım podnos gətirir

Bir dəfə evin işçisi məzuniyyətə ayrıldı və anam yemək podnosunu əlinə alaraq süfrəyə gətirdi. İmam belə dedi: "Ey vay! Fəridə, xanım podnosu gətirir».

Bacım deyirdi ki, biz evdə çox işləyirdik. Amma İmam heç vaxt xanımın işləməsini qoymurdu. Evdə iş görməyi qadının vəzifəsi hesab etmirdi. O deyirdi ki, əgər xanımın ürəyi istəsə, iş görər, ancaq kişinin haqqı yoxdur ki, ona "Bunu et, ya məsələn, axşama yemək bişir" -desin. [1]

1-Zəhra Mustəfəvi

**Peyğəmbər (s):**
"İman baxımından ən kamil olan daha əxlaqlı birisidir. Sizin ən yaxşınız isə öz qadınları ilə əxlaqı daha yaxşı olan kimsədir".
Ənn-nəvadir, səh. 204, hədis. 279



## Qurban olaram sənə!

Qurban olaram sənə ,göz nurum və ürəyimdən ayri düşdüyümdən bəri səni anmaqda və gözəl siman qəlb aynamda əks olunmaqdadır.

Əzizim, Allahın səni öz pənahında sağlam olaraq qorumasını ümid edirəm. Vəziyyətim nə qədər çətin olsa da, şükür Allaha, indiyədək nə baş veribsə, xoş keçib. Hazırda isə gözəl Beyrut şəhərindəyəm. Həqiqətən, yerin boşdur. Təkcə şəhərə və dənizə tamaşa etmək olduqca xoş təəssürat bəxş edir adama. Əfsus ki, belə bir ali mənzərənin ürəyə isinməsi üçün əziz sevim-

lim mənimlə birgə deyil. Hər halda, bu gecə gəmini gözlədiyimiz ikinci gecədir. Deyilənə görə, sabah bir gəmi hərəkət edəcək, ancaq biz gec çatdığımıza görə başqa gəmini gözləməli olacağıq. Hələlik nə etməli olduğumuz məlum deyil. Pak babalarımın izzətinə xatir Allahın bütün hacılara öz əməllərini tamamlamaqda yardım etməsini ümid edirəm. Bu baxımdan bir az nigaranam, amma cismi baxımdan, şükür Allaha, sağlam və hətta daha gümraham. Olduqca yaxşı bir səfərdir. Yerin olduqca boşdur. Ürəyim oğlun[1] üçün bir az darıxıb. Ümid varmı?[2] Uca və əziz Allahın diqqət və qayğısı sayəsində sağlam və xoşbəxt olsunlar. Ağa[3] və xanımlara[4] məktub yazsan, mənim salamımı çatdır. Mən hamınızın tərəfindən ziyarətçiyəm. Xanım Şəms Afaqa məndən salam çatdır və habelə onunla da cənab doktora salamımı çatdır. Xavər Sultan və Rübabə Sultana da salamlarımı çatdır. Şeyx Əbdülhüseynə o biri səhifəni çatdırəmasını de.

Sənə qurban olaram! Uzun ömürlər və davamlı izzət diləyi ilə, Ruhullah.

1-Məqsəd seyid Mustafa Xomeynidir. O zaman onun üç yaşı var idi.

2-Mustafa və sair övladlarına işarədir. O zaman onlar hələ dünyaya gəlməmişdilər.

3-İmam Xomeyninin həyat yoldaşının atası Mirzə Məhəmməd Səqəfi nəzərdə tutulur.

4-Məqsəd İmam Xomeynin anası və nənəsidir. Həmin zaman onlar həyatda idilər.

**Peyğəmbər (s):**
"Öz ərinin evində hər hansı bir iş görən və hədəfi isə ailə işlərini sahmana salmaq olarsa, Allah ona öz rəhmətini endirər və Allahın rəhmətinə məruz qalarsa heç bir zaman əzaba düçar olmaz".

Şeyx Səduq, səh. 411

## Sən yumalı deyilsən!

İmam mənə hörmət göstərirdi və hətta evdə iş görməmə belə razı deyildi. O həmişə belə deyirdi: «Süpürmə». Məsələn, hovuzun kənarında uşağın yaylığını yumaq istədikdə, gəlib deyərdi ki, dur, sən yumalı deyilsən.

İmam mənzildə olmadığı zaman otağı süpürər və uşağın paltarını yuyardım. İmamzadə Qasımın ziyarətinə getdiyimiz bir ildə -bizim mənzildə işləyən şəxs bizimlə deyildi, uşaqlar böyümüş, qızları isə ərə getmişdi- günorta yeməyini yedikdən sonra mən qabları yumaq üçün hovuzun kənarında oturdum. İmam mənim qabları yuduğumu görən kimi mənizilimdə olan Fəridəyə "Fəridə, qaç, xanım qabları yuyur"-deyə səsləndi. Fəridə də qaçıb gəldi və qabları məndən alıb yudu. [1]

1-İmamın həyat yoldaşı

**Peyğəmbər (s):**
"Mömin birisi öz ailəsinin rəğbət və meylinə görə yemək yeyər, ancaq münafiq öz rəğbət və meylini ailəsinə zorla qəbul etdirər".
Kafi, c. 4, səh. 12, 8-ci hədis.

## Siz oturmusuz xanım isə işləyir?

Əgər xanım bir gün yemək hazırlasaydı, nə qədər pis olsaydı belə kimsə etiraz etməzdi və İmam da o yeməyi təriflərdi.

Xanım əgər evdə nəyisə iş görsəydi, hətta bir stəkanı belə götürüb harasa qoysaydı və biz də oturub buna seyrçi qalsaydıq, İmam bizə narahatlıqla belə deyərdi: "Siz oturmusuz və xanım isə işləyir?" İmam xanımın bir gün işlədiyini görsəydi, həmin gün "Nə üçün xanım iş görür"-deyə etirazları başlayar və belə söyləyərdi: «Ananiz hamınızdan daha yaxşıdır, onun kimi kimsə sizin ananız ola bilməz". [1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
“Qiyamət günü ümmətimin içərisindən cənnətə ümid yarada biləcək heç bir yaxşı əməli olmayan birisini gətirəcəklər, ancaq Allah-taala “Onu cənnətə aparın, çünki o, öz ailəsinə qarşı mehribanlıq göstərirdi”-deyə buyuracaq”.
Əl-Firdovs, c. 5, səh. 460



## Xanımı görmüsüz, ya yox?

Bəzən İmamı görmək üçün onun otağına daxil olanda bizdən soruşardı :Xanımı görmüsüz ,ya yox?
Əgər “Xanımı görməmişik”-deyə cavab versəydik, onda belə deyərdi: Ya Əli! Gedin, əvvəl Xanımı görün, sonra mənim yanıma gəlin. İmamı görməzdən qabaq əvvəl xanımın yanına gedib onu görməyə öyrəşmişdik. [1]

1- Əli İşraqi (İmamın nəvəsi)

## Əgər ağa narazı olarsa, onda necə olacaq?

İmam Türkiyəyə sürgün edilən vaxt əmim (Ayətullah Pəsəndidə) onun yanına getmək istəyirdi. O bizim mənzilə gələrək qapının arxasından dedi ki, xanımın özü ilə söhbət etmək istəyirəm. Əgər xanımın vasitəsiz olaraq İmama nəyisə bir mesajı varsa, söyləsin.

Anam salam verməyə məcbur qaldı. Sonralar yadıma gəlir ki, anam narahat olduğunu deyərdi. Çünki İmamın yoxluğunda ilk dəfə naməhrəmə salam vermişdi. O belə deyirdi: "İndi, əgər ağa narazı olarsa, onda necə olacaq?" [1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Mənim ümmətimin ən yaxşı kişisi öz ailəsinə qarşı zorakı olmayan, onları təhqir etməyən, qayğıkeş və onlara zülm etməyən birisidir".
Məkarimul-Əxlaq, səh. 206



## Əmr verməyə haqqım yoxdur

Həyatım boyunca İmamın öz xanımıona «Qapını bağla»-deyə səsləndiyini görmədim. Dəfələrlə şahidi olurdum ki, xanım gəlib İmamın yanında əyləşərdi, ancaq İmamın özü ayağa durub qapını bağlayardı və hətta ayağa duranda belə mənə də "Qapını bağla"-deyə müraciət etmirdi.

Bir gün İmama «Xanım otağa daxil olanda, elə həmin anda ona qapını bağlamasını söyləyin"-deyə dedim. İmam isə belə cavab verdi: "Mənim ona əmr etməyə haqqım yoxdur". O hətta xahiş formasında belə xanımdan nəyisə istəmirdi. [1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Kimsə öz ailəsini sevindirərsə, Allah o sevincdən qiyamətəcən günahlarının bağışlanmasını tələb edən bir varlıq yaradar".
Kənzül-Ümmal, c. 16, səh. 379

## Xanım necədir?

İmamın son günlər olaraq keçirdiyi ağır vəziyyətdə gözünü hər dəfə açanda danışa bilirdisə, "Xanım necədir?"-deyə soruşurdu. Biz də "Yaxşdır, xəbər edək gəlsin?"-deyə cavab verirdik. O isə "Xeyir, xanımın bel ağrıları var, qoyun, istirahət eləsin"-deyərdi. (Bu ona görə idi ki, xanım İmamın əməliyyat olunmasından bir həftə qabaq belində bir az problem yaranmışdı və həkim də ona bir müddət istirahət etməsi gərəkliyini söyləmişdi.) İmam bu qədər öz xanımına qarşı diqqətcil idi.[1]

1-Siddiqə Mustəfəvi (İmamın qızı)



## Siz qonaqların yanına gedin

Bir gün anamgilə qonaq gəldi. Qonaqlar xəbərsiz gəldiyinə görə işlər hazır deyildi. Xanım tələm-tələsik şirniyyatla meyvə hazırlamaq istəyirdi.

İmam isə «Siz qonaqların yanına gedin»-deyərək samovarı qalamağa getdi. O zaman samovarlar közlə qalandığından yandırılması çətin idi, köz alışmırdı. İmam o qədər samovarı sirkələyib üfürdü ki, samovar alovlandı və ağa bir çay dəmləyib süfrəni hazırladı. Yoldaşının qonaqları tək qoyub başqa otaqda iş görməsinə isə icazə vermədi.[1]

1- Zəhra Mustafavi (İmamın qızı)

**İmam Əli (ə):**
"İnsanların şəfaətçisi- haqqa əməl, sədaqət və düzgünlükdür".
Ğürərul-Hikəm, 5789-cu hədis

## Orada daha bacarmaram

Günlərin birində anam İmama belə dedi: Getdiyin hər bir yerdə mən səninlə birgə olmuşam. Başına gələn hər bir hadisədə sona qədər şərikin olmuşam, amma səndən bir istəyim var. Əgər cənnətə getsən, ora da məni özünlə birgə apar. İmam həmişə sözün düzünü dediyindən belə söylədi: "Xeyr! Bura qədər mənimlə gəldiyinə görə sənə minnətdaram. Amma orada hər kəs özü və öz əməli hesaba çəkiləcək. Orada daha səni özümlə birgə apara bilmərəm. [1]

1- Zəhra Mustafavi (İmamın qızı)

**İmam Əli (ə):**
"Başqalarına qarşı mehriban olmaq Allahın rəhmətini nazil edir".
Ğürərul-Hikəm, 4209-cu hədis



## Oğlum, sevgilə davran!

... Oğlum Əhmədə vəsiyyət edirəm ki, qohum-əqrəba ilə, xüsusilə, bacıları, qardaşları, bacı övladları ilə sevgi, mehribanlıq, fədakarlıq və qayğı ilə davransın. Bütün övladlarıma vəsiyyət edirəm ki, biri-birlərinə qarşı həmrəy, qəlbləri bir, əlaqəli, səmimi olsunlar və hamısı Allah yolunda məhrum bəndələrə xidmət etsinlər, çünki dünya və axirətin xeyri, səadəti bu kimi işlərdədir.[1]

1- Səhifeye İmam, c. 16, səh. 226

**Peyğəmbər (s):**
"İnsanların ən pisi o kəsdir ki, başqaları ona görə əziyyət və çətinlikdə olsun".
Biharul-Ənvar, c. 72, səh. 54

## Başqalarına mane olmadan gecə namazının qılınması

İmamla birgə yaşayandan bəri həmişə axşamlar onun gecə namazına durduğunu görmüşəm və hər vaxt namaza duranda mənə və uşaqlara mane olmaq istəməzdi. Bir dəfə də olsa belə, biz onun namazına görə oyanmamışıq, oyansaydıq da özümüz oyanardıq.

Səfərdə olanda da, ağa gecə namazı üçün duranda elə hərəkət edər, elə sakit yol gedər və sakitcə dəstəmaz alardı ki, başqalarına mane olmazdı.[1]

1- Mustafa Kəffaşzadə (İmamın həyat yoldaşından nəql edir.)

**İmam Əli (ə):**
"Bir çox məsələlərə göz yumub üstündən keçməyən birisinin həyatı çətinləşər".
Ğürərul-Hikəm, 9149-cu hədis



## Səbir edərəm!

Bəzən mətbəxdə iş görəndən sonra işığı söndürüb İmamın qulluğuna gedərdik. Yanında əyləşəndə ağa başın qaldırıb "Nahara filan yeməkdir?" deyərək soruşardı.

Dolayı yolla bildirmək istəyirdi ki, bizdən yemək qoxusu gəlir. Əlbəttə, bizə heç vaxt bir söz deməzdi. Bir dəfə qayıdıb dedim ki, bizə nə qədər səbir edəcəksiz? Yalan deməsin deyə belə söylədi: Eybi yoxdur, səbir edərəm.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Sadiq (ə):**
“Qadınlarınızın ən yaxşısı xoş ətirli və dadlı xörək hazırlayan birisidir, pulu lazımı yerə xərcləyib, lazımsız yerə xərcləməyəndir. Belə bir qadın Allahın yer üzərindəki inanılmış şəxslərindəndir və Allahın inanılmış şəxsləri isə nə ümidsiz olar, nə də peşman”.
Vəsailuş-Şiə, c. 14, səh. 15

## Dadlı olsa yeyərəm

İmama yemək təklif etmək istəyəndə onun zahiri görünüşünə də fikir verirdik. Çünki dadlı olsaydı belə, səliqəli olmadığına görə yeməzdi. Amma yemək səliqəli olsaydı deyərdi ki, indi, dadına baxaram, dadlı olsa yeyərəm. Biz İmama yemək hazırlayanda onun səliqəli və gözəl olmasına çalışırdıq.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)



## Əsas prinsiplərdə ciddiyyət

İmam nəyəsə «Yox» desəydi, daha ata, həyat yoldaşı və ya övlad sevgisi təsirinə düşüb sözünü dəyişməzdi.

Onu da qeyd edim ki, İmamın ciddiyyəti həyatın əsas prinsipləri ilə əlaqədar idi. Bəzi göstərişləri uşaqlarına çətin gəlirdi və müxalif olduğu işi görmək üçün heç vaxt onu qane edə bilməzdik. Sözü həmişə bir olub.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**İmam Sadiq (ə):**
"Mömin birisi daim ailəsinə elə layiqli tərbiyəni irs qoyur ki, hamını cənnətə daxil etsin. Verdiyi tərbiyə həm kiçiyə, həm böyüyə və hətta evində sığınacaq verdiyi kimsəyə belə şamil olar".
Dəaimul-İslam, c. 1, səh. 82

## Övladlarınızın tərbiyəsinə diqqət edin

Uşaqlar yetkinlik dövrünə çatandan sonra İmam daha çox onların tərbiyəsinə diqqət ayırırdı. Bizdən həmişə belə soruşardı: Uşaqlarınızın evdən nə vaxt çıxıb, nə vaxt qayıtdıqlarından xəbəriniz varmı? Kimlə oturub durduqlarını, nə söhbət etdiklərini bilirsinizmi? Uşaqlara öz valideynlərinə, xüsusən, analarına ehtiram etməyi tapşırardı. Məsələn, xanımı uşaqların birinə iş tapşıranda, işi yerinə yetirməzdisə, İmam çox narahat olardı. Otaqda özgə adam olsaydı yavaş və olmasaydı isə ucadan "Niyə ananın sözünə qulaq asmırsan? Anana hörmət etməlisən"-deyərdi.

1-Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Əli (ə):**
"Övladlarınıza namaz qılmağı öyrədin. Yetkinlik çağına çatandan sonra isə onları hesaba çəkin".
Ğürərul-Hikəm, 6305-ci hədis.



## Namazlarına siz baxın

İmam az nəsihət edərdi. Yeddi yaşdan uşaqların dini tərbiyəsinə diqqət edərdi. Deyərdi ki, uşaq yeddi yaşdan namaz qılmalıdır. Uşağı namaz qılmağa vadar edin ki, doqquz yaşına çatanda adət etsinlər. Mən isə belə deyərdim: Başqa sahələrdəki tərbiyələri ilə özüm məşğul olaram, amma namaz qılmağa siz onlara deyin, çünki mən desəm, qulaq asmazlar mənə.

İmamın özü onların namazlarına nəzarət edib soruşardı. Uşaqların "Qılmışıq"-sözü ilə kifayətlənər və daha araşdırma aparmazdı.[1]

1- İmamın həyat yoldaşı

**Peyğəmbər (s):**
"Övladlarınıza hörmət edin və onlara gözəl tərbiyə verin ki, günahlarınız bağışlansın".
Kənzül-Ummal, 45409-cu hədis

## Övladların tərbiyə edilməsi kiçik iş deyil

İmam ailədə ananın rolunu önəmli hesab edirdi və uşaqların tərbiyəsinə olduqca əhəmiyyət verirdi. Bəzən zarafat edib «Deməli, qadın həmişə evdə qalmalıdır?»-deyərdik. O isə deyərdi ki, siz evi, övladın tərbiyəsini kiçik iş hesab etməyin. Əgər kimsə bir nəfəri tərbiyə edə bilsə, onda cəmiyyətə böyük bir xidmət etmiş olar.

İmam hesab edirdi ki, kişi xeylağı övlad tərbiyəsinin öhdəsindən gələ bilməz və bu iş ancaq qadına məxsusdur. Çünki qadının sevgisi daha çox olur və ailənin möhkəmliyi də sevgi üzərində qurulur.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Cənnətdə şadlıq adında bir ev var. Oraya yalnız uşaqları sevindirən kimsələr daxil olar".
Kənzül-Ummal, c. 3, səh. 170



## Uşaqlarla əylənmək vaxtı

İmam fiqh (İslam hüququ) tədrisi ilə məşğul olsa da, övladlarını unutmurdu. Ailənin hüququnu, övladların tərbiyəsini yaddan çıxartmırdı.

Övladlarının əylənməsinə, hətta onlarla oynamasına gündəlik vaxt ayırmışdı. Həmin əyləncə və oyunlarda tərbiyə də unudulmurdu.[1]

1- Fatimə Təbatəbai
(İmamın həyat yoldaşından nəql edir.)

**Peyğəmbər (s):**
"Hər kəsin ətrafında uşaq olur, bilin ki, uşaqla gərək uşaq olasan".
Mən-la yəhzəruhul-Fəqih, c. 3, səh. 483

## İyirmi dəqiqə bir yerdə oynuyurduq

Evə günortadan qabaq tələbələr gəlirdi, İmam onlara dərs keçirdi. 12:30-da isə dərs qurtarırdı. 12:50-də dəstəmaz və namaza hazırlaşırdı. O vaxta qədər isə bizimlə oynayardı.

Uşaq üçün oyuncağın alınmasına razı deyildi və deyirdi ki, oyuncağa verilən pul əbəsdir. Saxsı qırıntılarını düzərək onları vurub dağıdırdıq, dağıda bilənsə qalib sayılırdı. Biri-birimizlə oynayırdıq. Sonra İmam gəlib bizə qoşulurdu və qalan iyirmi dəqiqəni bizimlə oynayardı. Əgər "Qurgəm be hava"[5] oynasaydıq, onda başımızı qucağına alıb bizixilas edərdi.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Sadiq (ə):**
"Allah-taala övladına çox sevgi göstərən bəndəsini bağışlayar".
Mən-la yəhzuruhul-Fəqih, c. 3, səh. 483

## Al, sən uddun

İmam uşaqları çox sevərdi. Həmişə nəsihət edərdi ki, yetkinlik dövrünə çatmamış uşaqların azad şəkildə oynamalarına mane olmayaq. Onlara şərait yaradıb, az göstəriş və qadağa qoyaq.

Beş yaşlı oğlum Əli İmamı çox sevirdi, İmam da onu çox istəyirdi. Həmişə deyərdi ki, mənim uşağım olub, ancaq Əli başqadır. Əli onsuz qala bilmirdi. Hər gün otağına gedirdi. İmamın eynəyi və saatı ilə oynamağa xoşlayardı. Günlərin birində İmamın eynəyi və saatını götürəndə ağa belə dedi: Əli can! Eynəyin gözünə zərəri ola bilər. Saatın zənciri də, Allah eləməsin, üzünü cızar. Üzün gülə bənzəyir, xoşa gəlməz hadisə baş verər.

Əli saatla eynəyi İmama verib belə dedi: Yaxşı, gəl, başqa bir oyun oynayaq, mən İmam olum, sənsə balaca Əli. Ağa razılaşdı. Əli dedi: Uşaq böyüyün yerində oturmaz ki!? İmamsa bir az kənara çəkildi və Əli onun yanında oturub belə dedi: Uşaq gərək eynəklə saata əl vurmasın.

Bu zaman ağa gülərək eynəklə saatı Əliyə verib belə söylədi: Al, sən uddun.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
“Uşaqları sevin və onlarla mehriban davranın. Onlara verdiyiniz sözün üstündə durun, çünki onlar ancaq sizin ruzi verəcəyinizə inanırlar”.
Kafi, c. 6, səh. 49

## Uşaqlarla düzgün şəkildə davranın

İmam uşağın nadincliyindən şikayətlənən qızıma dedi ki, Hüseynin nadincliyinə göstərdiyin səbrin savabını etdiyim bütün ibadətlərin savabına dəyişməyə hazıram.

İmam hesab edirdi ki, uşaq böyüyənə qədər azad olmalıdır. Böyüyəndən sonra isə onu kontrolda, nəzarətdə saxlamağı lazım bilirdi. O belə deyərdi: Övladlarınızla doğru olun ki, onlar da doğru olsunlar. Uşağa ata-anası nümunədir. Valideynlər onunla düzgün rəftar etsələr, övladlarının da şəxsiyyəti düzgün şəkildə formalaşar. Uşağa verdiyiniz hər sözə əməl edin.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Uşağın fiziki aktivliyi və dəcəlliyi onun böyüyəndə huşunun, ağlının artmasına səbəb olar".
Kənzül-Ummal, c. 3, səh. 170

## Fatiməsiz gəldin?!

Bir-iki gün İmamgilə gəlməyəndə deyərdi: "Haradasınız? Bizi tanıyırsız? Yəni bu qədər diqqət edərdi. Qızım Fatiməni həmişə onlara apарardım. Bir gün evə daxil olanda ağanın həyətdə gəzişdiyini gördüm, salam verən kimi "Uşaq haradadır?"-deyə soruşdu. Mənsə dedim: Əziyyət etdiyinə görə gətirmədim. İmam olduqca narahat olub dedi: Bir də Fatiməsiz gəlmək istəsən özün də gəlmə. Bu qədər onun ruhu incə və zərif idi.

Dedim: Ağa, siz niyə bir belə bu uşaqları sevirsiniz? Bizim uşaqlarımız olduğuna görə sevirsiniz?

Buyurdu: Xeyr, mən uşaqları o qədər istəyirəm ki, hətta hüseyniyyəyə gedəndə belə, orada uşaq olsa fikrim ona yönəlir. Bu qədər uşaqları sevirəm. Bəzən söhbət edəndə uşağın ağlamasını, ya əlin tərpətməsini, ya da mənə işarə etməsini görəndə diqqətimi cəlb edir.[1]

1- Zəhra İşraqi (İmamın nəvəsi)

**İmam Səccad (ə):**
"Bunlar uşağın hüquqlarından hesab olunur: mehriban şəkildə onları tərbiyə etmək, onları bağışlamaq və səhvlərini gizlətmək".
Mən-la yəhzaruhul-Fəqih, c. 2, səh. 525

## Uşaqlar öz uşaqlığını etməlidir

Uşaqlar özlərini nadinc apararkən, biz etiraz edəndə İmam bizə deyirdi: Mən də uşaq ikən nadinclik edirdim. Elə düşünməyin ki, uşaq sakit olmalıdır. Uşağa imkan verin, olduğu yaşına münasib olaraq davransın. İmkan verin, uşaq öz uşaqlığını etsin. Mümkündür, vaxtında etməsə, sonrakı yaşlarında yaşına yaraşmayan hərəkətlər edə bilər.

İmam demək istəyirdi ki, uşağın fiziki aktivliyi, hətta kiçik bir otaqda oynamasının qarşısı alınmamalıdır.[1]

1- Fereştə Əhrabi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Əgər kimsə ağlayan uşağını sevindirib sakitləşdirsə, bu zaman Allah ona cənnətdə sevincinə səbəb olana qədər nemət verər".
Əl-Firdovs, c. 3, səh. 549

## Atacan, gəl burda əyləş!

Uşaqlar İmamın yanında az mübahisə edərdilər, amma bəzən mübahisələri baş verəndə, ağa hər iki tərəfi sakitləşdirməyə çalışıb onları mübahisədən çəkindirirdi.

Həsən üçüncü sinifdə oxuyurdu. Çantası, kitabı, dəftərlərinə çox əhəmiyyət verirdi və həmişə onları səliqəli, təmiz saxlayırdı.

Bəzən yeddi yaş ondan kiçik olan Yasir gücü çatmasa da, Həsənlə dava edib onu incidərdi. Bir gün İmamla həyətdə oturmuşduq, Yasir gizlincə yanımızdan keçərək Həsənin çantasını götürüb hovuza atdı. Həsən bayırdan qayıdıb dərslik ləvazımatlarını ipdən asıldığın görəndə çox narahat oldu. Qarşıya gələrək ona belə dedim: Bilirəm, çox əsəbləşmisən, amma İmam həyətdə oturub, heç nə deməyəsən. Həsən Yasirdən inciməsinə baxmayaraq, gözü İmama sataşanda heç nə demədi. İmam da onu görüb gülümsəyərək dedi: Atacan, gəl, burada əyləş.

Həsənlə söhbət edib onu qane etdi ki, Yasirə qarşı tünd rəftar etməsin.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Əli (ə):**
"Başqaların tərbiyəsi ilə məşğul olmaq istəyən şəxs ilk olaraq özündən başlamalı və dillə tərbiyəyə başlamazdan öncə insanları öz rəftarı ilə hidayət etməlidir".
Nəhcül-Bəlağə, 73-cü hikmət

## Fədakarlığın əməli təlimi

Uşaq idim. Yadıma gəlir, günlərin birində qoca bir kişi bağımıza torpaq gətirdi. Bizsə nahar yemək üçün süfrədə əyləşmişdik. İmam dedi ki, bu qoca kişi nahar etməyib. Baxmayaraq ki, yeməyimiz süfrədə az idi, ağa bir boşqab götürüb öz xörəyindən bir necə qaşıq qoyub belə dedi: Bir nəfərlik pay düzəlməsi üçün hər biriniz yeməyinizdən bir necə qaşıq boşqaba qoysun. Həmin gün, artıq xörəyimiz yox idi, amma o qoca kişinin xörəyi düzəldimişdı.

Uşaq olsam da, atamın bu işindən sonsuz dərəcədə həzz aldım.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)



## Ağa da mənimlə gəlmişdi

Əli (İmamın nəvəsi) İmamla hüseyniyyəyə getməyi çox xoşlayardı. Birinci dəfə gedəndə elə bildi ki, camaat hesyniyyəyə ona görə yığışıbdır. Evə qayıdanda mənə dedi ki, mənim hüseyniyyəyə gəldiyimə görə camaat şüar verirdi, ağa da mənimlə gəlmişdi.

İmam, Əlinin hüseyniyyəyə qarşı sevgisini görəndə, axşamlar Əliyə deyərdi: Əli, yat, səhər səni apararam hüseyniyyəyə. Əli İmamın bu vədini eşidəndə, o qədər sevinərdi ki, gecənin bir yarısında durub deyərdi: Ağa oyanmadı? Bəs niyə səhər açılmır? [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Allah-taala mömini, onun yoldaşını və övladlarını da sevir. Allah dərgahında ən gözəl şey kişinin yoldaşı və övladları ilə bir süfrə arxasında yemək yeməléridir. Onlar bir yerdə süfrə arxasında toplaşsalar, Allah onlara öz rəhmət gözü ilə baxar və süfrədən hələ durmamış onları bağışlayar".
Tənbihul-Ğafilin, səh. 343

## Qatıq üçün qaşıq var

Uşaq olanda, çörəyi qatıq kasasına batırıb yeyərdim. Yenidən çörəyi batırmaq istəyəndə isə barmağım qatığa dəydi. İmam əlimin üstündən vurdu. O zaman, haradasa, 5-6 yaşım olardı. İmam narahat olub əlimi çəkdiyimi gördü. Bu anda ağa əlimi ağzına salıb dedi: Mən sənin əlindən iyrənmirəm, ancaq kollektiv şəkildə süfrədə əyləşəndə diqqətli olmalıyıq. Qatıq üçün qaşıq var.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Sadiq (ə):**
"Mömin bəndə ailəsinə elə gözəl tərbiyə irs qoyur ki, onları cənnətə daxil etsin".
Dəaimul-İslam, c. 1, səh. 82



## Əməli tərbiyə

İmam evdə uşaqlarla çox mehriban və səmimi idi. Ümumiyyətlə, ailəmiz dostluq və səmimiyyət atmosferində tənəffüs edib, amma eyni zamanda qətiyyətli və ciddi idi. Bizə başa salmışdı ki, onun meylinə müxalif bir şeyi etməməliyik. Əlbəttə, mühüm olmayan işlərdə bizi azad buraxmışdı və çətin tutmurdu, ancaq riayət etdiyi mühüm məsələlərdə heç kəs onun əksinə çıxa bilməzdi.

Həmişə bizdən söz alırdı ki, günah etməməklə İslam qaydalarına riayət edək.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Övladlarınıza üç xüsusiyyəti tərbiyə verin: Peyğəmbərinizə sevgi, Əhli-beytə sevgi və Quran oxumağı".
Kənzül-Ummal, c. 10, səh. 454

## Yetkinlik çağından sonrakı rəftar

İmamın yetkinlik çağına çatmış uşaqla rəftarı şəriətə uyğun olurdu və şəriət məsələlərində heç kəsə güzəşt getməzdi, amma yenə də bu işi kamil şəkildə edərdi. Məsələn, uşaqları sübh namazına oyatmazdı. O hesab edirdi ki, yatan şəxsin heç bir öhdəliyi yoxdur. Düşünürdü ki, yetkinlik dövrünə çatmamış uşağa pislə yaxşını başa salıb, daha sonra ona şəriət məsələlərini öyrətmək lazımdır.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)



## Uşağın yuxusuna haram qatma!

İmam heç vaxt kimisə oyatmazdı, yəni əgər onun yanında yatsaydıq, istər gecə, istərsə də sübh namazını biz oyanmayaq deyə sakit qılardı. Kimsə oyanmağı ona tapşırmasaydı, heç vaxt namaz üçün onu oyatmazdı. Yoldaşımın ailəsi sübh namazına uşaqları oyadardı, həyat yoldaşım da yetkinlik çağına çatmış qızımı oyadardı. İmam bu məsələni biləndən sonra, yoldaşıma xəbər yolladı ki, uşağın yuxusuna haram qatmasın. İmamın bu sözü qızımın ruhuna elə təsir etmişdi ki, o hadisədən sonra həmişə özü tapşırardı ki, onu sübh namazına vaxtında oyatsınlar.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

## Cibxərcliyi

İmam övladlarının iqtisadi müstəqilliyinə önəm verirdi. Buna görə onlara cibxərcliyi verirdi və onu xərcləməkdə azad buraxmışdı onları. Bir gün üzərində heyvan şəkili olan saç sancağı aldım, İmam onu görəndə, alıb dedi ki, get, gül şəkili olan saç sancağı al.1

1- Siddiqə Mustəfəvi (İmamın qızı)

**İmam Əli (ə):**
"Ey insan! Səni günah etməyə həyasız edən nədir?! Rəbbinə səni məğrur edən nədir?! Özünü məhv etməyə səni vadar edən nədir?!"
Nəhcül-Bəlağə, 223-cü xütbə



## Günah olmaz!

İmam uşaqlıqdan hicabımızı qorumaqda həssaslıq göstərirdi. Evdə qeybət, yalan, böyüklərə hörmətsizlik, müsəlmanlara töhmət kimi günahları etməyə haqqımız yox idi. Xüsusən, müsəlmanlara töhmət olan günaha çox ciddi yanaşırdı. Həmişə təkidlə vurğulayardı ki, Allahın bəndələrinin bir-biri üzərindəki üstünlüyü yalnız təqva baxımındandır. O, bu məsələni uşağlıqdan bizə öyrədirdi.

İmam həmişə belə söyləyərdi: Sizinlə bu evdə işləyən fəhlə arasında heç bir fərq yoxdur.

1- Fəridə Mustəfəvi (İmamın qızı)

## Bacınla sənin heç bir fərqin yoxdur!

İmamın diqqət etdiyi məsələlərdən biri də kişi ilə qadın münasibətinin məhdud şəkildə olması idi. Yaşım 10-dan çox deyildi. Bir gün qardaşlarım və xala oğlanlarımla gizlənqaç oynayırdım. Hicabım da var idi. İmam məni çağırıb dedi: Bacınla sənin aranda heç bir fərq yoxdur. Bax, gör o, oğlanlarla oynayırmı?! [1]

1-Atifə İşraqi (İmamın nəvəsi)



## Naməhrəmə salam verməK vacib deyil

Mərhum İşraqi bacımla ailə quranda mənim on beş yaşım var idi və o, bizim yeznəmiz oldu. Günlərin birində onlara qonaqlığa dəvət olunmuşduq. İmamla birgə həyətlərinə daxil olanda cənab İşraqinin bizə doğru gəldiyini gördüm. İmama dedim: Ağa, salam verim? O isə belə cavab verdi: Vacib deyil.

Salam verməməyə üzüm gəlmədiyindən yolumu bağın içindən saldım ki, cənab İşraqi ilə üzbəüz gəlməyim. [1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Qadın ətrinin rəngi aşkar, iyi gizlindir. Kişi ətrinin iyi isə aşkar, rəngi gizlindir".
Kafi, c. 6, səh. 510

## İzdivac etmədiyinə görə ətrə ehtiyacın yoxdur

İmam həmişə bizə deyərdi ki, şəriət üzlə əllərin açıq olmasına icazə versə də, cavanlar özlərini birəz də artıq bağlasa daha yaxşı olardı.

Çox təkid edərdi ki, cavanlar evdən bayıra çıxdıqda, heç bir ətirdən istifadə etməsinlər. Bayramların birində ailə qurmuş qız nəvələrinin birinə ətir hədiyyə etdi, mənə isə başqa bir hədiyyə verib buyurdu: İzdivac etmədiyinə görə ətrə ehtiyacın yoxdur.[1]

1- Atifə İşraqi (İmamın nəvəsi)

**İmam Hüseyn (ə):**
"Kim cəlb edici paltar geyərsə, Allah qiyamət günü ona atəşdən bir paltar geyindirər".
Furu-Kafi, c. 6, səh. 455



## Bu paltar sizə layiq deyil

Bayram günü İmamın mənzilində idik. Qohumlarımızdan biri bir paltar geymişdi. Paltar qara rəngdə olsa da, İmamın gözünə dəbdəbəli paltar kimi görsənmişdi. İmam dedi: Bu paltar sizə münasib deyil, onu geyməyin. O adam isə dedi: Ağa, axı, bu paltar qaradır?! İmam cavabında buyurdu: Qara olsa da, sizə layiq bir geyim deyil.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

## Naməhrəm az get-gəl etsin!

İmamın yeznələri və gəlinləri ilə rəftarı həm sayğılı, həm də dostcasına idi. Ancaq yeznələr naməhrəm olduğu üçün onların çox get-gəlinə razı deyildi. Buna görə həmişə bizimlə yeznələr arasında pərdə olurdu. Evdə başqa qızlar da olurdu və ağa məhrəm-naməhrəm məsələlərində çox ciddi idi.

Keçmişdə indiki kimi deyildi, indi yeznə nişandan sonra tez-tez qız evinə get-gəl edir.

İmamın mənzilinə yeznələr istədikləri kimi get-gəl etmirdilər, çünki evdə qızlar, nəvələr azad gəzirdi və naməhrəmin onlara az get-gəl etməsi lazım idi. [1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)



## İçəridə adam var!

İmam qadınların naməhrəm kişilərlə yersiz söhbətini bəyənmirdi. Məsələn, yetkinlik çağına çatmış nəvələrlə bir otaqda oturmazdıq. Maraqlısı odur ki, yanında olanda bizə otaqdan çıxmağı deməzdi, əksinə, otaqdan çıxmaq ona deyilərdi. Yaxud mən yanında olanda, yetkinlik çağına çatmış nəvəsi mənə oğlum kimi olsa da, otağa daxil olmaq istəyəndə İmam deyərdi: İçəridə adam var! [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Əli (ə):**
"Həzrət Əli (ə) bir şəxsin oğlu imam Həsənin (ə) yanında qeybət etdiyini görəndə dedi: Oğlum, belə insandan qulaqlarını qoru, çünki o, vücudunda ən çirkin və nəcis şeyləri tapıb sənə ötürmək istəyir".
Mizanul-Hikmətin xülasəsi, c. 2, səh. 777

## Bilirsiniz qeybət nə qədər haramdı ?

Bir gün İmam ev əhlinin hamısını bir yerə yığıb dedi:
-Mən hamınızı bir yerə yığıb söz demək istəyirdim. Bilirsiniz, qeybət nə qədər haramdır?
- Bəli.
-İnsan qətlinin nə qədər böyük bir günah olduğunu bilirsinizmi?
-Bəli.
-Onda bilin ki, qeybətin günahı ondan da çoxdur. Zina əməlinin nə qədər böyük bir günah və haram olduğunu bilirsinizmi?
-Bəli.
-Elə isə bilin ki, qeybət ondan da böyükdür.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)



## 62 il ərzində qeybət eşitməmişəm

62 il İmamla ailə həyatı sürmüşəm və bu müddətdə bir dəfə də olsa belə, ondan qeybət eşitməmişəm. Evdə bir işçimiz var idi. Əlindən yaxşı iş gəlmədiyindən onu başqa işçilə əvəz etdik. İmama dedim ki, təzə fəhlə çox yaxşı işçidir. İmamsa buyurdu: Əgər bu sözünlə bundan qabaqkı işçinin pis olduğunu demək istəyirsənsə, onda bu, qeybətdir və mənsə bunu eşitmək istəmirəm.[1]

1- Xədicə Səqəfi (İmamın həyat yoldaşı)

**İmam Rza (ə):**
“Allah sənə rəhm etsin. Heç vaxt namazı üzrsüz səbəbdən dolayı keçirtmə. Namazı ilk vaxtında qıl”.
Uyunu Əxbarir-Riza

## Övladlara namazın ilk vaxtını tövsiyə

İmam övladlara dair çox tövsiyə edərdi. Övladlarının namazı ilk vaxtda qılmasına çox həssaslıq göstərərdi.

İmamın önəm verdiyi digər məsələ isə uşaqların təhsil alması ilə bağlı idi və heç vaxt bəyənməzdi ki, təhsil ilində uşaqlar oynamaqla vaxtlarını hədər etsinlər. Həmişə nəvə və nəticələrinin dərsi ilə maraqlanardı. [1]

1- Zəhra İşraqi (İmamın nəvəsi)

**İmam Əli (ə):**
"Övladlarınızı elmləndirin".
Kənzül-Ummal, c. 3, səh. 170



## Dərslərini yaxşı oxuyursan?

Günlərin birində İmamın otağına daxil olanda belə söylədi:

-Dərsini yaxşı oxuyursan?

-Bəli.

-Yaxşı iş görürsən, çünki böyüyəndə yaxşı iş, yaxşı yaşayış istəsən, onda gərək yaxşı dərs oxuyasan. Axirət dünyasında da gözəl həyat üçün dərs oxumalısan və bilmədiklərini öyrənib onlara əməl etməlisən.[1]

1- Seyid İmadəddin Təbatəbai (İmamın oğlunun qaynı)

**Peyğəmbər (s):**
"Qadınların mehriyyəsində həddi aşmayın, çünki qadınlar Allahın yağışına bənzəyirlər".
Mucazatun-Nəbəviyyə, səh. 182, 142-ci hədis

## Qonaqlıq və şənlik vaxtı deyil

İmam qadınların mehriyyəsinə diqqət edirdi. Qızın mehriyyəsinin olmasını zəruri hesab edirdi. Əgər kəbin üçün İmamın yanına gələnlər mehriyyə olaraq bir cild Quran təyin edirdilərsə, İmam bunu qəbul etməzdi və deyərdi ki, mehriyyə olaraq bir məbləğ təyin etsinlər. Ancaq evlənmək üçün digər təşrifatlara yaxşı baxmazdı. İmamın nəvəsi qardaşımla izdivac edəndə, müharibə gedirdi deyə, İmam toy adətlərindən qəti olaraq imtina edərək belə dedi: Qonaqlıq və şənlik vaxtı deyil. [1]

1- Fatimə Təbatəbai (İma3mın gəlini)



## Namazı yüngül saymayın

Namazın ilk vaxtında qılınmasına çox əhəmiyyət verirdi. İmam Sadiqdən (ə) hədis nəql edirdi ki, namazında səhlənkar olan, onu yüngül sayan biri Əhli-beytin şəfaətindən məhrum olar. Bir dəfə İmama dedim: Bəlkə də namazda səhlənkarlığın mənası onu bir dəfə qılıb bir dəfə qılmamaqdır. İmamsa belə söylədi: Xeyr! Bu, şəriətə ziddir. İmam Sadiqin (ə) məqsədi zöhr namazı başlayanda namazını ilk vaxtda qılmayan şəxsdir. Bunu edən birisi gördüyü işi namazdan üstün hesab etmiş olur.

İmamın göstərdiyi misalla məsələ mənə aydın oldu. Biz qapıdan çölə çıxmaq istəyəndə böyüyə yol verməyə çalışırıq. Əgər böyüyə əhəmiyyət verməsək, onda kiçiyə əhəmiyyət vermiş oluruq. Namazın yüngül sayılması da buna bənzəyir. [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Əli (ə):**
"Allahın İblisə etdiyi işdən ibrət alın. Belə ki, bir dəfə təkəbbürlük etməsi ilə uzun və məşəqqətli ibadətlərini batil etdi. İblisdən sonra kim onun etdiyi günahla Allahın qəzəb və cəzasından amanda qala bilər?"
Nəhcül-Bəlağə, 192-cü xütbə.

## Təkəbbürlük etməyin

İmam tövsiyə edərdi ki, əxlaq və rəftarımıza nəzarət edək. Məğrurluq və təkəbbürlük etməyək. Nə mən İmamın gəlini olaraq, nə də övladlarından biri İmama görə təkəbbürlülük etmişik. Heç yadıma gəlmir ki, İmamın ailəsi olduğumuza görə özümüzü dartaq, ya da qızlarım özünü dartsın. Xeyr! Qəti belə bir şey olmayıb.[1]

1- İmamın həyat yoldaşı.



## Hamı ilə sədaqətli

İmamın ən gözəl xüsusiyyətlərindən biri də sədaqəti olub. Heç vaxt qarşıya elə bir vəziyyət gəlməyib ki, çöldə dediyi sözü evə daxil olanda dəyişmək məcburiyyətində olsun. Yəni İmamın çöldəki rəftarı ilə evdəki rəftarı bərabər idi. Fərq isə təkcə evdə təşrifat və rəsmiyyətin silinməsi idi. Başa düşdüyünü evdə sədaqətlə uşaqlar, anam və başqaları ilə danışardı. [1]

1- Seyid Əhməd Xomeyni (İmamın oğlu)

**İmam Əli (ə):**
"Ailənin kiçikləri ilə mehriban olun və böyüklərinə hörmət göstərin".
Mizanul-Hikmətin xülasəsi, c. 2, səh. 419

## Bəzən bizə çay tökərdi

Övladlarına, xüsusən də, böyük övladlarına özəl şəkildə hörmət edirdi. Onlarla təmkinli, xoş bir davranışı var idi.

Bəzən xəbər etmədən hər hansı bir bəhanə ilə mətbəxə gedib, bizə çay tökərdi. Biz İmamın bu davranışından xəcalət çəkərdik.[1]

1-Atifə İşraqi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Övladların sizə yaxşılıq, lütf etməkdə ədalətli olmalarını istədiyiniz kimi, siz də onlara güzəşt etməkdə ədalətə riayət edin".
Məkarimul-Əxlaq, c. 1, səh. 473



## Hamıya bərabər sevgi

İmamın ailənin bütün üzvləri ilə isti və mehriban bir münasibəti var idi. Ondakı avtoritetliyə görə hamımız rəftarımızda onu nəzərə alırdıq, amma buna baxmayaraq, atamızla çox isti, mehriban və səmimi münasibətimiz var idi.
İmam övladları arasında fərq qoymazdı və hamıya eyni ölçüdə sevgi göstərərdi. Belə ki, illər keçdikdən sonra belə, biz İmamın hansı övladını daha çox sevdiyini bilmirdik.

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Allah qatında bir kişinin öz ailəsi ilə oturması məscidində etikaf etməsindən daha gözəldir".
Mizanul-Hikmətin xülasəsi, c. 2, səh. 461

## İki dost kimi olurduq

İmamın yanında olanda özümüzü çox rahat hiss edirdik, çox yaxşı münasibətimiz olurdu. Babamızın yanında hər şeyi kənara qoyub iki səmimi dost kimi olurduq. Avtoritetliyi öz yerində, amma dostluğumuz, etdiyimiz söhbətlər çox səmimi idi. Nəsihət edirdi, ancaq başqa babalar və böyüklərin nəsihəti kimi yox. Elə nəsihət edirdi ki, hiss etmirdik. Axşam evə qayıdanda dedikləri üzərində düşündükdə İmamın bizə yol göstərdiyini başa düşürdük.[1]

1- Leyli Bürucerdi (İmamın nəvəsi)



## Sənin günahın nəzm-intizamsızlıqdır

Günlərin birində ali məktəbdən evə qayıdanda birbaşa İmamın yanına getdim. Üst-başım səliqəsiz idi. Paltarım çirklənmiş, ayaqqabılarım da tozlu idi. İmam həyətdə gəzişərkən məni görüb qaşqabaqlı halda soruşdu:

-Niyə bu formada universitetə gedirsən?

Zarafata dedim:

-İslam respublikasının universitetinə bundan daha yaxşı bir vəziyyətdə getmək olmaz.

-Sən iki günaha yol verdin. Birincisi riyakarlığındır. Belə ki, imkansız olduğunu və təzə ayaqqabı ala bilmədiyini demək istəyirsən. İkinci günahın isə İslam şəriətinə və qanununa zidd sayılan nizam-intizamsız olmağındır.

-Universitetə səliqəli getsəm, ola bilər, mənə irad tutsunlar.

-İrad tutmaq istəsələr, de ki, Xomeyni mənə deyib ki, gərək universitetə səliqəli gedəm.[1]

1- Zəhra İşraqi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Allah və onun elçisinə ən yaxın insan salamı ilk verən kimsədir".
Mizanul-Hikmətin xülasəsi, c. 1, səh. 509

## Salamda qabaqlamaq

İmam həmişə salam verməkdə başqalarını qabaqlayırdı. Adamlarla görüşəndə onlardan qabaq salam verərdi. Bütün qüdrətlər İmamım adını eşidəndə qorxuya düşürdülər. İmamın bu cür əzəmətinə baxmayaraq, çox mehriban və həlim şəxs idi. Belə ki, uşaqları da görsəydi, onları salamlayardı.[1]

## Hidayət, nəsihət, amma müdaxilə yox!

İmam öz şəxsi və ailə həyatında övladlarına ancaq ümumi şəkildə nəsihət edib yol göstərərdi və onların işlərinə müdaxilə etməzdi. Övladlarını gələcək üçün qurduqları planlarında və işlərində azad qoymuşdu. Hətta nəvələrinə ad qoyulmasında belə müdaxilə etməzdi. [2]

1- Zəhra İşraqi (İmamın nəvəsi)
2- Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Uşaqları sevin və onlarla mehriban olun".
Mizanul-Hikmətin xülasəsi, c. 2, səh. 109



## Nəvələr İmama aşiq idilər

İmam nəvələri ilə çox səmimi və mehriban idi. Bəlkə də onları uşaq və ya cavan olduqlarına görə sevərdi və onlarla dostluq münasibəti, mehribançılığı daha çox idi. Yanında olanda bizə iş tapşırmağa üzü gəlməzdi, amma nəvələrinə «Bir stəkan su gətir», «O radionu ver mənə» və «O stəkanı götür"-kimi buyruqlar verərdi.

Bir sözlə, onlarla daha səmimi idi və onlar da İmamın aşiqi idilər.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**İmam Əli (ə):**
"Çətin hadısələrdə özünüzü səbir etməyə öyrəşdirin. Necə də gözəl xislətdir ki, insan haqqa görə səbir etsin".
Ğürərul-Hikəm, 3084-cu hədis

## Səbir və güzəştə dəvət

İmamın evində ixtilaf, mübahisə az baş verərdi. Baş verən hallarda isə İmam narahat olmasın deyə ona deməzdik. İmam xəbərdar olanda bizi səbirə, güzəştə dəvət edərdi və azacıq olsa da belə, övladlarının həyatına müdaxilə etməzdi.[1]

## Gözləntim təkcə günahlardan çəkinməyinizdir

Adətən, babalar və ya nənələr yaşlı olduqlarına görə övladlarından onlara qulluq etmələrini istəyirlər. Mənim yadıma gəlmir ki, İmamın bir kəsdən gözləntisi olsun. Nənəm deyirdi ki, İmamla yaşadığım 62 il müddətində bir dəfə də olsa, məndən nə isə ummasının şahidi olmadım. Bizdən istədiyi təkcə günahlardan çəkinməyimiz olub. [2]

1- Fəridə Mustəfəvi (İmamın qızı)
2- Fereştə Əhrabi (İmamın nəvəsi)



## Seçim sizin əlinizdədir

İmamın azad hesab etdiyi məsələlərdən biri də övladlarının və başqalarının özlərinə həyat yoldaşı seçməsi məsələsi idi. Qızlarının izdivacı ilə bağlı İmam deyərdi ki, Mən filan kəsi münasib bilirəm, amma son söz sizindir. Qızlar namizədlərini istəmədiyi halda, məsələ pozulurdu.[1]

1- Mərziyyə Hədidəçi

## Son söz qızındır

İmam qızlarına həyat yoldaşı seçmək istədikdə mövzunu onlara danışardı. Təbii ki, oğlanla qız biri-birini yaxşı tanımasa da, ailələr biri-birini yaxşı tanıyırdı və imamın qızları elçiliyə gələn oğlanın ailəsini tanıyırdı. İmam mövzunu onlara açandan sonra, oğlan haqda öz fikrini deyirdi. Onun yaxşı və zəif cəhətlərinə aydınlıq gətirirdi, amma son sözü qızı deyərdi.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

İmam Baqir (ə):
“İbrahim Həmədaninin sualına cavab: Elçiliyə gələn şəxsin əxlaqını, dindarlığını bəyəndiyiniz təqdirdə ona qız verin. Əks təqdirdə, yer üzündə cinayət və fəsad çoxalar”.
Kafi, c. 5, səh. 347



## İzdivac üçün iki önəmli göstəriş

İmamın izdivacda önəmli saydığı iki məsələ- qarşı tərəfin təqvalı və həmtay (biri-birinə uyğun) olmasıdır. Təbii ki, ailənin özünə də əhəmiyyət verirdi və nəslin təsirli olduğunu hesab edirdi. Əgər bir kəsin cəddi saleh olarsa, onda onun nütfəsi də pak olar. Bu sadalananlardan sonra, digər kateqoriyaları nəzərdən keçirirdi. İmam şəxsin iqtisadi durumunu xoşbəxtlik və ya bədbəxtlik faktoru kimi dəyərləndirmir və ona fikir vermirdi [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Sadiq (ə):**
"Kişi ailəsinə qarşı -onda olmasa da belə- üç xüsusiyyətə riayət etməlidir: Xoş rəftar, orta səxavət və səbirlə müşayiət edilən qeyrət".
Tuhəful-Uqul, səh. 322

## Biri-birinizlə dost olun

İmam kəbin kəsən zaman belə nəsihət edərdi: Biri-birinizlə dost olmağa çalışın. Kişinin bayırda min-bir problemi varsa, evə gələndə onları qapının arxasında qoyub evə mehriban, üzü gülər halda daxil olmalıdır.

Gəlinə söyləyərdi: Ola bilsin, evdə çoxlu iş görüb yorulasan, ancaq yorğunluğunu ərinə bildirmə, evə gələndə onu qarşıla və isti münasibətlə özünüzə həyat qurun. [1]

1- İmamın ofisindəki işçilərdən biri

**İmam Əli (ə):**
“Gözəl əxlaq üç şeydədir: Haramdan çəkinmək, halal ruzi qazanmaq və ailənin rifahı, asayişini təmin etmək”.
Biharul-Ənvar, c. 71, səh. 394



## Gedin biri-birinizə uyğunlaşın

Bir gün İmamın hüzurunda olarkən kəbin kəsirdi, məni görüb dedi: Gəl, şahidlərdən biri də sən ol.

İmam bizim kimi, izdivac əqdini uzun-uzadı oxuyub çox danışmazdı. Birinci əqdi oxuyurdu, sonra isə bir-iki cümlə söhbət edirdi. İmam əqdi oxuyandan sonra üzünü qızla oğlana çevirərək dedi: Gedin biri-birinizə uyğunlaşın.

Düşündüm ki, biz nə qədər söz danışırıq, amma İmamın sözü “Gedin biri-birinizə uyğunlaşın”-cümləsində xülasələşir.[1]

1-Ali dini rəhbər

**Peyğəmbər (s):**
"Qadın əri üçün ən yaxşı ətirdən istifadə etməli, ən gözəl paltarları geyməli və ən gözəl zinət əşyalarını taxmalıdır".
Kafi, c. 5, səh. 508

## Mənzil hazırla!

İmam bacım qızının nigahında yeznə eşitmədən belə dedi: Mənzili və özünü elə hazırla ki, ərin evə qayıtmasını yada salanda həvəsə gəlsin, elə olmasın ki, evə qayıtmağa həvəsiz olsun.[1]

## Qadının işləməsinin eybi yoxdur, amma bir şərtlə ki,...

İmam qadının işləməsi barədə belə deyərdi: Ailəsinə ziyan vurmasa, eybi yoxdur. İmam qadını cəmiyyətin müəllimi hesab edirdi, çünki ailə cəmiyyətin kiçik modelidir. Qadın ailənin möhkəmliyində əsas rol oynayır. İmam Hesab edirdi ki, qadın pis kişini belə dəyişdirə bilər. Ailə mühiti sağlam olsa, ixtilaf olmaz, uşaqlar sağlam tərbiyə alar və gələcəkdə bir fərd olaraq cəmiyyəti təşkil edər. Əlqərəz, qadın ailəsini unutmasa, işləyə bilər. Baxmayaraq ki, şəri məsuliyyət atanın üzərinə düşür, yəni övlad cinayətkar olsa, Allah dərgahında cavab verəcək, amma İmam ananın rolunu həlledici hesab edirdi.[2]

1- Zəhra Mustəfəvi (İmamın qızı)
2- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Sadiq (ə):**
"Xoşbəxt qadın o kəsdir ki, ərinə hörmət edir, adını əziz tutur, onu əziyyətə salmır və hər bir halda ona itaət edir".
Biharul-Ənvar, c. 100, səh. 253



## Əsəbləşsə, dillənmə!

Qızım evlənəndə İmam izdivac əqdini oxuyandan sonra qızıma nəsihət edib dedi: Ərin evə girəndə əsəbləşdiyini görsən, sənə ittiham etsə, səhv danışsa belə, sən yenə dillənmə. Sakitləşəndən sonra de ki, sözündə ittiham var idi. Sonra imam yeznəyə üzünü tutub belə dedi: Sən də o cür edərsən: əsəbləşdiyini görsən, öyüd-nəsihət vermə.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Əli (ə):**
"Fürsətlər bulud kimi gəlib gedər. Elə isə yaxşı fürsətləri əldən verməyin".
Nəhcül-Bəlağə, 21-cü hikmət

## Bir dəqiqə olsa da, hədər verməzdi

İmamın bütün gecə-gündüzü əvvəlcədən tənzimlənmişdi və bir dəqiqə olsa da belə, zamanını hədər verməzdi. Yaş və fəaliyyətinin çox olmasına baxmayaraq, ev əhlinə üç (hər biri yarım saatdan bir saata qədər) vaxt ayırmışdı. Kim istəsəydi, onun yanına gedərdi.

Bu müəyyən saatlarda fikri də, ruhu da bizə yönəlmişdi. Soruşduğumuz heç bir sualı cavabsız qoymazdı. Heç vaxt özü hər hansı bir məsələni ortaya atmazdı və imkan verərdi ki, ailə üzvləri ehtiyac duyduqları məsələləri danışsınlar. Verilən sual vaxt darlığına görə qalsaydı, onu mütləq yadında saxlayıb başqa bir fürsətdə cavablandırardı.[1]

1- Fereştə Əhrabi (İmamın nəvəsi)



## İmamın şirin təbəssümü

Adətən, İmamın istirahət vaxtında yanına gedərdik. Bəzən məğrib və işa namazlarından sonra, bəzən xəbərlərdən sonra, bəzən də sübh vaxtı mədrəsəyə getməmiş.

Otağa daxil olanda İmamın şad olduğunu hiss edirdim. Təbəssümlə salam verərdi. İndinin özündə də qəbrinin ziyarətinə gedəndə salam verərkən İmamın təbəssümünü görürəm. İmamın o şirin təbəssümü heç vaxt xatirəmdən çıxmaz. İmam görüşdüyü yaxın adamların hər birisi ilə belə idi. Sevgi bəsləmədə ayrı-seçkilik etməzdi.[1]

1- Atifə İşraqi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Qiyamət günü mənə ən yaxın oturanınız daha gözəl əxlaqlı və ailəsinə yaxşı olandır".
Uyunu Əxbarir-Riza, c. 2, səh. 38

## Çox emosional idi

İmam çox emosional idi. Məsələn, Nəcəfdə olan illərdə bacılarım görüşünə gəlirdilər. Qayıtmaq üçün İmamla vidalaşanda, elə bir səhnə yaranırdı ki, o səhnəni tamaşa etməyə taqətim olmurdu və çıxıb gedirdim. Övladları ilə də bu cür emosional rəftar edirdi ki, onu müşahidə etməyə insanın taqəti olmurdu. Ancaq bu rəftarlar bir zərrə də İmamın qərar qəbul etməyində təsir etməzdi.

1- Höccətülislam vəlmuslimin Seyid Əhməd Xomeyni



## Qum şəhərinə çatanda zəng edərsən

Qum şəhərində sakin idim. Hər vaxt İmamın görüşünə Tehrana gedib qayıdan baş mənimlə xudahafizləşib deyərdi: Quma çatan kimi, zəng edərsən. Zəng edəndə Hacı İsaya de ki, mənə xəbər versin, təkcə zəng edib çatdığını deməklə kifayətlənmə, çünki bunlar mənə xəbər etmirlər, nigaran olduğumu düşünmürlər. Hacı İsaya de ki, mütləq mənə xəbər versin.

Öz-özümə İmamın barəmdə nə qədər nigaran olduğunu düşündüm, halbuki sevənlərimiz çox olsa da, mənə bu kimi söz dediklərini eşitməmişdim. Düşündüm ki, İmamın bu sözü məni nə qədər sevdiyini göstərir.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**Peyğəmbər (s):**
"Övladın qoxusu cənnət qoxusudur və qız uşağını isə ancaq möminlər sevər".
Əl-Firdovs, c. 2, səh. 272

## Əhəmiyyətlisi qızdır

İmamın qız uşaqlarına sevgisi çox idi. Qız uşağı olanlara deyərdi ki, əhəmiyyətlisi elə qızdır. Həmişə deyərdi ki, sevgi bəsləyə bildiyimiz- qız uşağıdır. Bəlkə də buna görə hesab edərdi ki, kişi qadının ətəyindən meraca gedə bilər.

1- Fereştə Əhrabi (İmamın nəvəsi)

Mülcəm tərəfindən imam Əli (ə) zərbətlənərkən həzrət Hüseynlə Həsənə etdiyi vəsiyyəti: “Sizi, başqa övladlarımı və sözüm çatan hər bir kəsi Allahdan qorxmağa və işlərinizdə nəzm-intizamlı olmağa çağırıram”.

Nəhcül-Bəlağə



## İşlərin tənzimlənməsi

İmamın bütün işləri tənzimlənmişdi. Nəcəfdə bir necə gün qaldıqdan sonra, İmamın hansı saatda nə iş gördüyünü başa düşdüm. Ona baxanda satın necə olduğunu bilirdim. Bəzən bu haqda İmamın xanımından soruşanda deyərdi: İmamın bir günlük proqramını desəm, onu 360 günə vura bilərsiz.

İmam dəqiqliklə öz proqramına əməl edərdi və mənə də həmişə nəzm-intizamlı olmağımı tövsiyə edərdi.[1]

1-Fatimə Təbatəbai (İmamın gəlini)

**Peyğəmbər (s):**
"Paltarınızı təmiz, saç-saqqalınızı səliqəli saxlayın, dişlərinizi fırcalayın və təmizliyinizə fikir verin. İsrail övladları bunu etmədiklərinə görə qadınları günaha düşdülər".
Mizanul-Hikmətin xülasəsi, c. 2



## Təmizlikdə nümunə idi

İmam çox təmizkar biri idi. Bu, onun bariz xüsusiyyətlərindən biri idi. Cavan vaxtlarından təmizlikdə nümunə olmasını xatırlayırıq. Biz uşaq olan vaxtlarda küçələr palçıqlı olardı, belə ki, bütün tələbələrin əbaları dizə qədər palçığa bulaşardı. Ancaq İmam o qədər astadan küçələrdə yol gedərdi ki, əbasında təqribən 10 dənə palçıq ləkəsi olardı. Əbasını otağa gətirərək qızdırıcı qarşısında qoyub qurudardı, sonra biz onları ovxalayıb təmizləyərdik. [1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**İmam Kazım (ə):**
"Kişinin qadını üçün səliqəli, bəzənmiş olması qadının ismətini artırar".
Mizanul-Hikmətin xülasəsi, c. 2

## Gərək təmiz və səliqəli olasınız

Nəcəfdə hərəmə gedərkən ayaqqabılarını təmizləyərdi. Həyətdə bir güzgü var idi, onun qabağında durub saqqalını darayardı, sonra isə ətir vurub çölə çıxardı. Müstəhəbb əməlləri tərk etməzdi və bizə də o əməlləri sifariş edərdi.

Bəzən iki dəfə İmamın evinə gedərdik və hər dəfə gedəndə, bayırdan birbaşa İmamın görüşünə getməzdik. Bilirdik ki, üst-başımız səliqəsiz olsa, İmam bizə "Siz niyə bu gündəsiz?", "Bu, nə üst-başdır?", "Səliqəli olmalısınız"-deyəcək. Ona görə də İmamın hüzuruna gedəndə səliqəli və münasib vaxtda olmasına çalışardıq.[1]

1- Zəhra İşraqi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"İslam təmizlikdir. Elə isə siz də təmiz olun, çünki cənnətə yalnız paklar daxil olar".
Bağdad tarixi, c. 5, səh. 143

## Siz də həmin işi görün

İmam təmizkarlığına görə müxtəlif başmaqları olardı. 6-5 başmaqları olardı: ev, həyət, ayaqyolu və s. Bir sözlə, hər başmaq bir yerə məxsus idi.

Günlərin birində İmama dedim: Siz sadə yaşamağı təlqin edirsiniz, amma altı cüt başmağınız var, bizimsə cəmi bir başmağımız var. O isə belə dedi: Siz bir cüt başmağınızı bir il geyinəcəksiniz, mən də 6 cüt başmaqlarımı altı il geyinəcəm. Deməli, israfa yol verməmişəm. Digər tərəfdən isə, mətbəxdə geyindiyim başmaq otaqda geyindiyimdən fərqlidir. Siz də belə edin. [1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Əli (ə):**
"Yeməkdən qabaq və sonra əlləri yumaq ömrü uzadar və gözləri işıqlandırar".
Kafi, c. 6, səh. 290



## Süfrədə yemək üçün dəsmal

İmam süfrədə yemək yeyərkən həmişə sinəsinə uzun ağ bir dəsmal taxardı ki, yemək paltarına tökülüb ləkə salmasın.

İmamın otağından həmişə ətir qoxusu gələrdi. Yanında həmişə istifadə etdiyi bir dənə daraq, balaca bir güzgü və iki dənə ətri, belə ki, biri canamazında, biri də taxçada olardı. [1]

1- Zəhra İşraqi (İmamın nəvəsi)

**Peyğəmbər (s):**
"Peyğəmbərimiz (s) çox qalın, çox nazik və çox uzunla çox qısa paltarı yasaqlamış və bu iki xüsusiyyətin orta həddinə riayət etməyi tapşırmışdı".
Kənzül-Ummal, 41172-ci hədis

## Paltarın rəngində qadağam yoxdur

Evin içində mütləq azadlıq sürürdü. İmam əvvəlcədən ailəsinə demişdi ki, evdəki meyar vacib əməllərə riayət edilməsidir.

Məsələn, o dövrdə ruhani ailəsində evdə qızın qısa qol köynək geyinməsinə pis baxırdılar, ancaq şəriətə zidd olmadığından İmam ona icazə verirdi. Ancaq həyətə çıxanda uzun qol geyinməli idilər.

Yaxud evdə qırmızı, sarı, göy və s. bu kimi paltarların geyilməsinə bir söz deməzdi. Belə buyurardı: Paltarın rəngində qadağam yoxdur, evdə istədiyiniz kimi geyinə bilərsiniz. Əsas odur ki, şəriətə zidd olmasın. [1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Sadiq (ə):**
"Cana və mala ziyan vuran şeylər israf hesab olunur".
Biharul-Ənvar, c. 75, səh. 303

## Artıq çıraq sönməlidir

İmam gecələr ibadətə qalxanda otaqdan çıxarkən balaca çırağı söndürüb həyətin çırağını yandırardı. Həyətdən qayıdanda da bunun əksini görərdi ki, az da olsa, artıq işıq məsrəfinə yol verməsin. İki çırağın lazımsız yerə eyni vaxtda yanmasına razı olmazdı. [1]

1- Mustafa Kəffaşzadə

**İmam Sadiq (ə):**
"İsrafın ən az miqdarı qabın dibindəki qalan yeməyi və ya suyu atmaq, çöl paltarını ev paltarına çevirmək və xurma ilə meyvələrin dənələrini atmaqdır".
Mizanul-Hikmətin xülasəsi, c. 1, səh. 490

## Bu salfetkanı hələ istifadə etmək olar

İmam dedi: Eynəyimi verin, mütaliə etmək istəyirəm.

Eynəyi masanın üstündən götürəndə şüşələrinin tozlu olduğunu gördüm. Salfetka ilə eynəyin şüşələrini təmizləyib İmama verdim və o da eynəyi alıb gözünə taxtı.

Fikir vermədən əlimdəki salfetkanı əzib atmaq istəyəndə, İmam belə söylədi: Cənab Ənsari! Əgər salfetkanı daha istifadə etməyəcəksinizsə, onu verin mənə, çünki onu hələ də istifadə etmək olar.[1]

1- Höccətülislam vəlmuslimin Ənsari Kermani

**İmam Əli (ə):**
"Pulu nahaq yerə xərcləmək malı zay edib israf etməkdir".
Nəhcül-Bəlağə, 126-cı xütbə



## İndi ki, hamıda var, siz də alıb gətirin

İmam Nəcəfdə olan vaxtı başqa tələbələr kimi soyuducusu yox idi. Şeyx Nəsrullah Xəlxali öz pulu ilə İmama soyuducu almaq istəyəndə İmam buna razı olmadı. İki il müddətində soyuducu olmadan keçinirdi. Deyirdi: Tələbələrin soyuducusu yoxdur. İki ildən sonra, tələbələrin təqaüdləri artdı və maddi vəziyyətləri yaxşılaşdı. Tələbələr özlərinə soyuducu almaq imkanına malik olanda İmam dedi: İndi ki, hamıda var, siz də alıb gətirin. [1]

1- Höccətülislam vəlmuslimin Fərqani

## Çox qəşəng köynəkdir!

İmamın əynindəki köynəyi görüb, gülərək dedim: Çox qəşəng köynəkdir! Gərək bu köynəyi qəzetə verəm ki, şəklini çap etsinlər. Sən demə, köynək qısa qol olub, amma anam istifadə olunsun deyə başqa köynəyin qollarını kəsərək həmin köynəyə tikmişdi. Maraqlısı odur ki, yamaq kimi tikilən hissənin nə parçası, nə də rəngi köynəyin özünə uyğun gəlmirdi. Qısaqol köynəyin parçası pambıq idi, ona tikilmiş qollar isə titron parçadan ibarət idi. Bu köynəyi görəndə İmama söylədim:

-Verin şəklini çəkib qəzetlərə verək ki, hamı sizin necə paltar geyindiyinizi görsünlər.

-Nə olub göynəyə?! Lap qəşəngdir!

-Pis olduğunu demirəm, sadəcə bir az uyğunsuz görsənir.

-Lap əladır, əl vurma, mənim xoşuma gəlir.[1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

**İmam Rza (ə):**
"Dünya ləzzətlərindən xoşbəxtliyiniz üçün istifadə edin və halal yolla ürək istəklərinizi yerinə yetirin. Əlbəttə, bu yolda şərəf və ləyaqətinizi ləkələməmək üçün ehtiyatlı olun. İsrafa da yol verməyin. Bu, istirahət və xoş güzar həyatınızın idarəçiliyində sizə kömək olacaq və bununla da dünya işlərində uğur qazanacaqsınız".
Biharul-Ənvar, c. 17, səh. 308

## İstirahət zamanı istirahət et

Tətil vaxtlarında da dərs oxuyub mütaliə etdiyimi görəndə, mənə dedi ki, sən uğur qazanmayacaqsan, çünki istirahət vaxtı istirahət etmək lazımdır. Həmin məsələni bir dəfə də ciddi şəkildə oğluma demişdi. Yanımda oğluma dedi ki, nə bir saat istirahəti dərslə əvəz etmişəm, nə də bir saat dərsi istirahətlə.

İmam hər işini öz vaxtında edərdi və oğluma da bunu nəsihət edərək deyərdi ki, istirahət et, yoxsa, təhsil üçün özünü hazırlaya bilməzsən.[1]

1- Höccətülislam vəlmuslimin Şəhid Məhəllati

**İmam Səccad (ə):**
"Allahım, məni həddi aşmaqdan qoru və ruzimin tələf olmasının qarşısını al. Sərvətimə bərəkət verərək artır və xeyirli işlərdə xərcləməyə qismət et".
Səhifeyi Səccadiyyə, 20-ci dua

## Orta bir tələbənin yaşayışı

Bu sözü cürətlə deyə bilərəm ki, İmamın yaşayış səviyyəsi, dolanışığı orta bir tələbənin və hətta ondan da aşağı yaşayan tələbənin səviyyəsində idi.

Mən bu işdən xəbərdar idim, çünki İmamın xadimi Məşədi Hüseyn məndən borc pul alardı. İmamı tanıyan və qəbul edən bəzi həkimlər İrandan Nəcəfə görüşə gələndə bizə deyərdilər ki, İmamın yaşı çox olduğuna görə sağlamlığı üçün vitaminli yeməklər yeməlidir. Amma İmam bunu qəbul etməzdi.[1]

1- Ayatullah Rəsuli Məhəllati

## Mənzilimdə israf !?

Bir gün İmam günortadan qabaq zəng edib dedi ki, həyətin işığı yanır, onu söndürün. Dedim: Baş üstə. Bir neçə gündən sonra, işıq yenə yanılı qalanda yenidən zəng edib dedi ki, əgər işığı söndürmək sizə zəhmətdirsə, onda açarını qoyun otaqda, özüm gecələr yandırıb, səhərlərsə söndürərəm. Dedim: Ehtiyac yoxdur, Ağa, özüm söndürərəm. Bir neçə müddət fikir verirdim ki, işığı vaxtı-vaxtında söndürüm. Günlərin birində səhər vaxtı İmamın camaatla görüşü olanda, İmam stulda oturmuşdu. Ayatullah Rəsuli Məhəllatinin ofisinin işığı və İmamın mənzilinin arxasındakı Hacı Əhmədin (İmamın oğlu) həyətində işıq yanılı qalmışdı. Mən İmamın kənarında dayanmışdım, İmam işarə etdi ki, yanına gəlim. Bir az qabağa gələndə İmam əsəbi halda belə dedi: Mənim evimdə haram iş?! Evimdə israf?! Qorxumdan əsməyə başladım, dedim ki, Ağa, nə baş verib? O isə belə dedi: Çıraqları söndürməyi neçə dəfə deməliyəm? Məgər siz bilmirsiniz ki, israf haramdır?[1]

1-Seyid Rəhim Miryan (İmamın ofisinin üzvü)

## Yeməmək naşükürlük deyil

Əgər yemək İmamın xoşuna gəlməzdisə, bir söz demədən süfrədə olan başqa şeylərdən yeyərdi. Məsələn, xurma, qatıq və ya göyərti yeyərdi. Bir gün qabağına yemək qoymuşduq. Onu yeməyib kənara qoydu. Zarafata dedim ki, niyə naşükürlük edirsiniz? O isə qayıdıb belə dedi: Mən naşükürlük edirəm, yoxsa siz Allahın nemətini bu günə salıb zay edirsiz?! İnsan bir yeməyi xoşlamayıb yeməsə, bu, nə vaxtdan naşükürlük hesab olunub?![1]

1- Zəhra Mustəfəvi (İmamın qızı)

## Xudahafiz, xanım!

İmam başqaları ilə olduğu kimi xanımı ilə də həmişə ehtiramla, ədəblə danışardı. Axırıncı gecə, evdən xəstəxanaya aparmaq istəyəndə mən və həkim onun kənarında qalmışdıq. Xanımı gəlib pillələrə çatanda İmam dedi ki, Xudahafiz, xanım! Siz daha zəhmət çəkməyin. Xanımı İmamın nə dediyini başa düşməyəndə İmam yenə dedi ki, Xudahafiz, siz daha gəlməyin. Yenə üçüncü dəfə demək istəyəndə, əlini sinəsinə qoyub təmkinlə dedi: Xudahafiz, xanım![1]

1- Hacı İsa Cəfəri (Xadim)

**İmam Sadiq (ə):**
"Hər kəs qırx gün səhər əhd duasını oxuyarsa, İmam Məhdinin (ə.f) səhabələrindən olar".
Mizari-Kəbir, səh. 663



## Əhd duasının insan taleyinə təsiri

İmam son günlərində mənə tapşırdığı Məfatihul-Cinan kitabının axırında gələn Əhd duasını oxumaq idi. O deyərdi ki, bu duanı səhərlər oxumağa çalış, çünki insanın taleyinə təsir göstərir. Ailəmizə əvvəldən axıra kimi sifarişi dini vacibatları yerinə yetirib haramlardansa çəkinmək olmuşdur.[1]

1- Fatimə Təbatəbai (İmamın gəlini)

**İmam Əli (ə):**
“Ey dünya, ey dünya! Məndən uzaq ol! Özünü mənə tanıtdırmaq, mənə meylli olduğunu bildirməkmi istəyirsən? İndi özünü mənim yanımda bəzəmək vaxtı deyil. Əsla. Sənə heç bir ehtiyacım yoxdur. Səni geriyə qaytarılması mümkün olmayan şəkildə üç dəfə boşamışam. Ömrün qısa, özün dəyərsiz, sənə ümid bağlamaq isə alçaqlıq və axmaqlıqdır”.
Nəhcül-Bəlağə, 77-ci hikmət

## Bunların heç birisi bir şey deyil

İmamın ruhunda nəfəsinin və həyatının sonuna qədər dəyişiklik baş verməmişdi. Adi günlərdə rəftarı olduğu kimi ölüm qarşısında da çox sadə rəftar edirdi. Yaxınlardan biri dedi ki, bir şey olmaz, halınız yaxşılaşar. İmamsa belə dedi: Nə gəlişi bir şeydir, nə gedişi, nə də ölümü bunların heç birisi bir şey deyil.[1]

1- Höccətülislam vəlmuslimin İmam Cəmarani



## İnsan özü özünü təmin etməlidir

Toplaşaraq oturduğumuz bir halda İmamın durub mətbəxə getdiyini görürdük. Hara getdiyini soruşanda belə deyərdi: Gedirəm su içməyə. Biz isə dedik: Bizə deyin, biz suyu gətirək də. O da belə cavab verdi: Məgər özüm o işi görə bilmərəmmi? Sonra gülərək buyurardı: İnsan özü özünü təmin etməlidir.[1]

1- Fəridə Mustəfəvi (İmamın qızı)

**İmam Səccad (ə):**
“Ananın haqqı olaraq bil ki, səni elə yerdə (bətnində) saxlayıb ki, başqası saxlamazdı, başqalarının sənə heç vaxt vermədiyi canının meyvəsini verib, bütün vücudu ilə- qulağı, gözü, əlləri, ayaqları, sacları, dərisi və sevinci ilə səni qoruyub. Sənə görə çətinliyə, qəm-qüssəyə və nigarançılığa səbir edir... Bütün bu sevgisi və zəhməti müqabilində ona təşəkkür etməlisən. Ancaq bil ki, yalnız Allah kömək etsə, onun şükrünü edə bilərsən».
Hüquq Risaləsi (ata və ananın haqqı bölməsi)

## Ananın razılığını ələ gətirin

İmamın başına xəstəlik kimi bir hadisə gələndə hamımızı bir yerə yığıb anamızı bizə sifariş edərdi. Anamızın çəkdiyi çətinlikləri və zəhməti barədə bizə danışırdı. Deyərdi ki, ananızın razılığını əldə etməlisiniz. Ömrünün son günlərində məni yanına çağıraraq anamın sifarişini edib belə söylədi: Ananın Allahdan başqa bir kəsi yoxdur, məbada onun sözünə qulaq asmayasan![1]

1- Höccətülislam vəlmuslimin mərhum Seyid Əhməd Xomeyni

## İstəsəniz, özünüz durun

Sübh namazına heç kəsi oyatmırdı və deyirdi ki, özünüz dura bilsəniz, durub sübh namazını qılın, yox, əgər dura bilməsəniz, onda mütləq günorta namazından qabaq onu qəza olaraq qılın. Qışda sübh namazı üçün hovuzun soyuq suyu ilə dəstəmaz alanda, isti suyu olardısa, bizə verərdi. Namaz barədə bizə çətin tutmazdı.[1]

## Bu da sənə xatir!

Bəzən İmamın yanına gedən zaman televizora baxırdı. Kanalların birində futbol yayımlananda baxdığı kanalı futbola çevirib deyərdi ki, bu da sənə xatir, əyləş bax. [2]

1- Fəridə Mustəfəvi (İmamın qızı)
2-Höccətülislam vəlmuslimin seyid Əhməd Xomeyni

# Elmi müsabiqə

Suallar kitabın mətninə əsasən hazırlanıb, qeyd olunan yollarla müsabiqədə iştirak edə bilərsiniz:
1-Sual anketin cavablandırıb bu ünvana yollayın: İmam Rza(ə) hərəmi, Cümhuri İslami səhnəsi, Xarici Zəvvarlar İdarəsi
2-Sual anketin cavablandırıb bu email-a yollayın: iro@imamrezashrine.com
3-www.imamrezashrine.aqr.ir saytına müraciət edib sual anketin cavablandırın

# Suallar

1- İmam uşaqların hansı yaşında təlim tərbiyəsi ilə məşğul olurdu ?
a) Yetkinlik dövründə b) Doğulan gündən
c) 4-5 yaşından ç) 2 yaşından

2- İmam ailənin möhkəmliyini nə də bilirdi ?
a) Vaxtı tanımaqda b) Sevgi ilə məhəbbətdə
c) Fədakarlıqda ç) İşlərdə ciddiyyət

3- İmam hansı günaha daha həssas yanaşırdı ?
a) Qeybət b) Yalan
c) Müsəlmana töhmət ç) Böyüklərə hörmətsizlik

4- Hacı Əhmədin söylədiyinə əsasən İmamın ən bariz xüsusiyyətlərindən biri nə olub ?
a) Sədaqət b) Mehribançılıq
c) Səbir ç) Mətanət

5- Ailədə bəzən olan ixtilafda İmamın rəftarı nə olub ?
a) Səbirlə, güzəştə dəvət edərdi
b) Şəxsən problemin həllinə müdaxilə edirdi
c) Heç bir müdaxilə etməzdi
ç) "a" və "c" variantları

6- Qadının işlə məşğul olmasına İmamın münasibəti nə olub ?
a) Müsbət baxırdı
b) Ailəsinə ziyan vurmasa, eybi yoxdur
c) Müxalif idi
ç) Bu haqda rəyi yox idi

7- Övladların namaz qılmasında İmamın rəftarı necə olub ?
a) Çətin tutardı
b) Çətin tutmazdı
c) Xüsusi proqramı var idi
ç) Həmişə xatırladardı

8- İmamın övladlarına tövsiyə etdiyi sifət hansı olub ?
a) Nəzm-intizam
b) Əxlaq
c) Pakizəlik
ç) Ədalət

## Şəxs haqqında məlumat

Ad:..............................................................
Soyad:.........................................................
Telefon:.......................................................
Email:..........................................................
Ünvan:.........................................................

| sıra | a | b | c | ç |
|---|---|---|---|---|
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |
| 5 | | | | |
| 6 | | | | |
| 7 | | | | |
| 8 | | | | |